

Biz bazar iqtisadiyyatını vergi yolu ilə tənzimləməliyik.

Heydər ƏLİYEV

HƏR BİR VƏTƏNDAŞ VERGİ ÖDƏMƏKDƏN ŞƏRƏF DUYMALIDIR

# Vergilər

№ 38 (829) ▪ 28 sentyabr 2016 www.vergiler.az Qiyməti: 55 qəp.


# Konstitusiya cəmiyyətlə birlikdə inkişaf yolu keçməlidir



Müstəqil Azərbaycan Respublikasının ulu öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış ilk Konstitusiyasının qəbul edilməsindən 21 il keçir. Bu müddət ərzində ölkəmiz böyük inkişaf yolu keçib, geniş hüquqi islahatlar aparılıb və bütün bunlar demokratik vətəndaş cəmiyyəti quruculuğu üçün möhkəm təməl yaradıb. Lakin ölkədə, cəmiyyətdə gedən proseslər zaman-zaman yeni tələblər irəli sürür. Konstitusiya isə elə bir sənəddir ki, o, cəmiyyətlə birlikdə inkişaf etməlidir. Bu baxımdan, 2002-ci və 2009-cu illərdə Azərbaycan Konstitusiyasına edilmiş dəyişikliklərdən sonrakı dövrdə əldə olunmuş uğurlar bu islahatların təsirli və səmərəli olduğunu sübut edib. Hazırda Azərbaycan öz inkişafının elə bir mərhələsinə daxil olub ki, ölkənin Əsas Qanununa müəyyən əlavələr və dəyişikliklər edilməsi zərurətə çevrilib.

Sentyabrın 26-da ümumxalq səsverməsinə çıxarılan Referendum Aktında Konstitusiyanın 23 maddəsinə dəyişikliklər edilməsi və onun altı yeni maddə ilə tamamlanması nəzərdə tutulur. Əlavələr və dəyişikliklər insan haqlarının və azadlıqların müdafiəsini təmin edən əsasların təkmilləşdirilməsini, effektiv və çevik dövlət idarəçiliyi mexanizminin formalaşmasını, həyata keçirilən iqtisadi islahatların səmərəliliyini və ardıcıllığını təmin etmək üçün iqtisadi idarəçilik mexanizminin təkmilləşdirilməsini, qanunverici hakimiyyətin fəaliyyəti ilə bağlı yeni tələblərin müəyyən edilməsini, dövlətin təhlükəsizliyi, cəmiyyətdə sabitlik üçün əlavə təminatlar yaradılmasını nəzərdə tutur. Bütövlükdə dəyişikliklər cəmiyyətin inkişafının müasir mərhələsində onun həyat fəaliyyətinin əsas sahələrini əhatə edir.

Sentyabrın 26-da Prezident İlham Əliyev, xanımı Mehriban Əliyeva və ailə üzvləri paytaxtın 29 saylı Səbail seçki dairəsinin 6 saylı seçki məntəqəsinə gəliblər. Dövlətimizin başçısı seçki məntəqəsinə daxil olub səsvermə bülletenini alaraq kabinəyə keçib və sonra bülleteni qutuya salıb. Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri də səs veriblər.

Qeyd edək ki, səsvermənin gedişini xarici və yerli müşahidəçilər, qeyri-hökumət təşkilatlarının nümayəndələri izləyiblər.

# Azərbaycan Prezidenti İlham Əliyev Sumqayıt şəhərinə səfər edib

## *Dövlətimizin başçısı bir sıra obyektlərin açılışında iştirak edib*

Sentyabrın 27-də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Sumqayıt şəhərinə səfərə gəlib. Dövlətimizin başçısı əvvəlcə ümummilli lider Heydər Əliyevin şəhərin mərkəzində ucaldılmış abidəsini ziyarət edərək önünə gül dəstəsi qoyub, sonra şəhərin giriş yolunda - Sülh küçəsində yenidənqurmadan sonra yaradılan şəraitlə tanış olub. Əsaslı təmir olunaraq yenidən qurulan Sumqayıt Dövlət Dram Teatrının binasında yaradılan şəraitlə tanış olan Prezident İlham Əliyev sonra Sumqayıt Dənizkənarı Bulvarının və şəhər çimərliyinin açılışında iştirak edib.



Dövlətimizin başçısına bildirilib ki, Xəzər dənizinin sahili boyunca 4 kilometr uzunluğu olan bulvar kompleksinin ümumi sahəsi 106 hektardır. Bulvarda Bayraq Meydanı inşa olunub. Azərbaycan Respublikasının dövlət bayrağı meydanda 42 metr hündürlüyündəki bayraq dirəyi üzərində dalğalanır. Burada 100 min ağac, 500 mindən çox müxtəlif gül kolu əkilib, 60 min kvadratmetr sahədə çəmənlik salınıb, işıqlandırma sistemi qurulub. Park-bulvar kompleksində 10 min oturacaq qoyulub. Beş yerdə böyük fəvvarə kompleksi tikilib, su təchizatı və kanalizasiya şəbəkəsi yaradılıb. Kompleks boyunca 12 min poqonmetr uzunluğunda piyada yolu salınıb, mühafizə kameraları, monitorlar quraşdırılıb. Bulvarda kiçik ölçülü gəzinti avtobusları və avtomobil yolu ilə yanaşı, velosiped idmanı ilə məşğul olmaq istəyənlər üçün də 3 metr enində xüsusi hərəkət zolağı salınıb. Bununla yanaşı, 3 kafe-çay evi, istirahət obyektləri, attraksionlar, kinoteatr, tennis kortu, futbol meydançaları, yay musiqi səhnəsi, ticarət və uşaqlar üçün əyləncə mərkəzləri yaradılıb. Ərazidə 2 yay uşaq-əyləncə mərkəzi tikilib, uşaqlar üçün 10 attraksion quraşdırılıb.

Sumqayıtda Şahmat Məktəbinin açılışında iştirak edən dövlətimizin başçısı Uşaq İncəsənət Məktəbinin açılış mərasimində də qatılıb. Bildirilib ki, məktəbin binasının tikintisinə keçən ilin dekabrında başlanılıb. İnşaat işləri yüksək keyfiyyətlə görülüb. Üçmərtəbəli binada 80 otaq var. Məktəb yeni avadanlıqla təmin olunub. 226 müəllimin məşğul olacağı tədris müəssisəsində ümumilikdə 800-dək şagird təhsil alacaq.

Prezident İlham Əliyev Sumqayıt şəhərinə səfəri çərçivəsində Heydər Əliyev Mərkəzinin açılışında iştirak edib. Dövlətimizin başçısı binanın rəmzi açılışını bildirən lenti kəsib, burada yaradılan şəraitlə tanış olub. Qeyd olunub ki, mərkəzin binasının tikintisinə ötən ilin noyabrında başlanılıb. Tikinti-quraşdırma işləri daxili imkanlar hesabına aparılıb. Üç mərtəbədən və mansarddan ibarət olan binanın ümumi sahəsi 4100 kvadratmetrdir. Burada iki konfrans zalı, nikah otağı, gənclər üçün müzakirə zalları, elektron kitabxana yaradılıb. Mərkəzdə linqafon, internet və rəssamlıq otaqları, fotostudiya və rəqs zalı fəaliyyət göstərir. Burada 25-30 nəfərin işlə təmin olunması nəzərdə tutulub.

Mərkəzlə tanışlıqdan sonra dövlətimizin başçısı Sumqayıt şəhər ictimaiyyətinin nümayəndələri ilə görüşüb. Görüşdə çıxış edən Prezident İlham Əliyev Sumqayıtın son illər sürətlə inkişaf etdiyini, regional inkişaf proqramı çərçivəsində şəhərdə sənaye müəssisələrinin yaradıldığını bildirib: «Sumqayıt böyük sənaye şəhəridir, əhalisi də kifayət qədər böyükdür. Sumqayıt Bakıdan sonra Azərbaycanın ikinci şəhəridir. Sumqayıtın inkişafına daim böyük diqqət göstərilib. Əminəm ki, Sumqayıtın bugünkü vəziyyəti, bugünkü görkəmi həm şəhər sakinlərini, həm də bütün Azərbaycan xalqını sevindirir. Son illər ərzində Sumqayıtda çox böyük işlər görülüb».

Dövlətimizin başçısı qeyd edib ki, Sumqayıtda icra olunan infrastruktur və sosial layihələr şəhərin ümumi görünüşünün dəyişməsinə, ekoloji cəhətdən təmiz şəhərə çevrilməsinə səbəb olub. Şəhərin giriş küçəsində abadlıq işləri aparılır, yaşıllıq zolaqları yaradılır, ağaclar əkilir. Yolların salınması işi gedir, sosial infrastruktur yeniləşir, Olimpiya, Paralimpiya kompleksləri, «ASAN xidmət» mərkəzi yaradılıb, xəstəxana təmir olunub. Şəhərdə qazlaşmanın səviyyəsi 100 faizə yaxındır. Şəhər əhalisinin 80 faizini fasiləsiz içməli su təminatı əhatə edir. Elektrik enerjisi ilə bağlı heç bir problem yoxdur.

Prezident İlham Əliyev bildirib ki, Sumqayıtın sənaye potensialının böyük dərəcədə artması, Sumqayıt Texnologiyalar Parkı, Kimya Sənaye Parkının yaradılması və ixracyönümlü məhsullar istehsal etməsi ölkəmizin sənaye ixracına öz töhfəsini verəcək. Eyni zamanda, Sumqayıtın dünya miqyasında ən ekoloji təmiz şəhərlərdən birinə çevrilməsi şəhərin havasının kurort havasına yaxınlaşmasına səbəb olmaqdadır. Bu isə Sumqayıtın gələcək inkişafında turizm sektorunun da mühüm rol oynamasına öz töhfəsini verəcək: «İndi Sumqayıt parklar şəhəridir. Mənə bu gün məlumat verildi ki, yeni inşaat layihələri icra ediləcək, bulvara yaxın yerdə yeni yaşayış binaları, otellər tikiləcək. Ona görə, Sumqayıt gələcəkdə Azərbaycanın turizm zonası kimi də özünü göstərməlidir».

Azərbaycan Prezidenti qeyd edib ki, Sumqayıtın inkişafı daim dövlətin diqqət mərkəzində olacaq.

# Referendumun ilkin nəticələri açıqlanıb

Mərkəzi Seçki Komissiyasının (MSK) sədri Məzahir Pənahov referendumun ilkin nəticələri ilə bağlı «Seçkilər» İnformasiya Mərkəzində mətbuat konfransı keçirib. Bildirilib ki, referendum 125 seçki dairəsi üzrə 5627 seçki məntəqəsində keçirilib. Ölkə üzrə qeydə alınmış seçicilərin sayı 5 milyon 276 min 111 nəfər olub. Seçki məntəqələrinə 5 milyon 280 min 924 səsvermə bülleteni paylanılıb. Referendumun baş tutması üçün seçicilərin 25 faizi iştirak etməli idi. İlkin nəticələrə əsasən, seçicilərin 69,7 faizi iştirak etdiyinə görə referendum baş tutmuş sayılır.

Qeyd edilib ki, referendum günü səsvermənin gedişini Avropa Şurası Parlament Assambleyasının, MDB Parlament Assambleyasının, Türkdilli Ölkələrin Parlament Assambleyasının müşahidə missiyaları, Böyük Britaniya, İtaliya, Türkiyə, Fransa, Avstraliya və digər dövlətlərin parlamentariləri, xarici ölkələrin ali seçki qurumlarının nümayəndə heyətləri və s. daxil olmaqla 18 beynəlxalq qurumdan 117 beynəlxalq müşahidəçi izləyib. Bunlar 33 ölkənin vətəndaşlarıdır. Səsvermə prosesinin müşahidəsinə öz təşəbbüsləri ilə və siyasi partiyaların, qeyri-hökumət təşkilatlarının, referendum üzrə təşviqat qruplarının təşəbbüsü ilə akkreditasiyadan keçmiş 53 min 531 yerli müşahidəçi qatılıb. Ümumxalq səsverməsinin gedişini xeyli sayda həm yerli və həm də xarici KİV nümayəndələri ətraflı işıqlandırıblar.

# Dövlət başçısı beynəlxalq müşahidəçiləri qəbul edib

Prezident İlham Əliyev sentyabrın 26-da Avropa Seçkilərin Müşahidəsi Akademiyası Missiyasının prezidenti, AŞPA-nın fəxri üzvü Goris Emiel Stefaanın başçılıq etdiyi, Malta parlamentinin spikeri, Avropa Seçkilərin Müşahidəsi Akademiyası Missiyası müşahidə missiyasının rəhbəri Farrugia Angelonun, eləcə də Malta, Serbiya, İtaliya, Fransa, Monteneqro, Bosniya və Herseqovina, Rumıniya parlamentlərinin deputatlarının və Avropa Şurası Parlament Assambleyasının üzvlərinin daxil olduğu nümayəndə heyətini qəbul edib.

Dövlətimizin başçısı böyük nümayəndə heyəti ilə ölkəmizə səfər edən qonaqların referendumun monitorinqi prosesində iştirakından məmnunluğunu ifadə edib. Referendum zamanı müşahidələr aparmaq üçün 30-dan çox dövlətdən, həmçinin mühüm beynəlxalq təşkilatlardan çoxlu sayda müşahidəçilərin Azərbaycana gəldiyini vurğulayan Prezident İlham Əliyev onların səsvermənin gedişini izləmələrinin önəmini qeyd edib. Dövlətimizin başçısı səsverməyə çıxarılan hər bir məsələ ilə bağlı ayrılmış müddət ərzində əhali arasında maarifləndirmə işlərinin aparıldığını, referendumun yüksək səviyyədə təşkil olunması istiqamətində bütün lazımi tədbirlərin görüldüyünü bildirib.

Avropa Seçkilərin Müşahidəsi Akademiyası Missiyasının prezidenti, AŞPA-nın fəxri üzvü Goris Emiel Stefaan səhər saatlarından başlayaraq missiya nümayəndələrinin ayrı-ayrı məntəqələrdə müşahidələri apardıqlarını izləməyib. Görüşdən sonra missiyalarını davam etdirəcəklərini deyən Goris Emiel Stefaan günün axırında aparılacaq yekun qiymətləndirmələrdən sonra qurumun müşahidələrin nəticələri ilə bağlı bəyanatla çıxış edəcəyini bildirib.

Dövlətimizin başçısı AŞPA-nın Referendumu Dəyərləndirmə Missiyasını, Avropa Xalq Partiyasının nümayəndə heyətini və Rusiya Federasiyası Federal Məclisinin Federasiya Şurasının sədr müavini, MDB Parlamentlərarası Assambleyasının müşahidə missiyasının rəhbəri İlyas Umaxanovu da qəbul edib.

## BU NÖMRƏMİZDƏ


VERGİLƏR NAZİRİ FÜZULİDƏ VƏTƏNDAŞLARI QƏBUL EDİB 2

BÜDCƏ GƏLİRLƏRİNİN ƏSASINI VERGİ GƏLİRLƏRİ TƏŞKİL ETMƏLİDİR 3

BORCLU VERGİ ÖDƏYİCİLƏRİ ÜZRƏ RİSK QRUPLARININ MÜƏYYƏN EDİLMƏSİ 4

VERGİ İSLAHATLARI İCTİMAİYYƏTİN MÜZAKİRƏSİNDƏ... 5

# Vergilər naziri Füzulidə vətəndaşları qəbul edib



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, mərkəzi icra hakimiyyəti orqanlarının rəhbərləri bölgələrdə vətəndaşları qəbul edir, onların qarşılaşdıqları problemlərin həllinə kömək göstərirlər.

Sentyabrın 23-də vergilər naziri Fazil Məmmədov Füzuli rayonunun Horadiz şəhərində Füzuli, Ağcabədi, Beyləqan və Xocavənd rayonlarından olan vətəndaşları qəbul edib. Qəbulda Vergi Məcəlləsinə edilmiş son dəyişikliklər, vergilərin hesablanması, ödənilməsi, əmək müqavilələrinin bağlanması, vergi borcları, vergi nəzarəti tədbirləri sahəsində sahibkarların qarşılaşdıqları problemlər, əməkhaqqı fondundan ödənilən icbari ödənişlər, vergi ödəyicilərinə göstərilən xidmətlər, vergi orqanlarına işə qəbul, yerli (bələdiyyə) vergilərin toplanması prosesində rast gəlinən müxtəlif çətinliklər və digər məsələlərlə bağlı vətəndaşların müraciətlərinə baxılıb.

Qəbul zamanı qaldırılan problemlərin əksəriyyəti yerindəcə həll olunub, müraciətlərin bir qismi nəzarətə götürülüb, digərlərinin araşdırılması və lazımi tədbirlərin görülməsi ilə bağlı müvafiq tapşırıqlar verilib. Qəbula gələn vətəndaşlar onlar üçün yaradılmış bu imkandan razılıqlarını bildiriblər.

# Vergi inzibatçılığı - təyinat üzrə əməletmə mövzusunda seminar

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) təşəbbüsü ilə Macarıstan Respublikasının paytaxtı Budapeşt şəhərində təşkil edilmiş seminarda kiçik və orta müəssisələrin vergi əməletməsi səviyyəsini yüksəltmək məqsədilə vergi administrasiyaları tərəfindən həyata keçirilən tədbirlərin, habelə vergi ödəyicilərinin və vergi orqanlarının bu məsələyə müxtəlif yanaşmalarının təhlilinə dair mühazirələr dinlənilmişdir. 10 ölkədən 17 nümayəndənin iştirak etdiyi seminarda iştirakçı ölkələrin vergi administrasiyalarının vergi əməletməsi sahəsində üzləşdiyi problemlər və həmin problemlərin həlli məqsədilə görülən işlər barədə fikir mübadiləsi aparılmış, OECD mütəxəssisləri tərəfindən kiçik və orta müəssisələrin könüllü vergi əməletməsinə dair tədbirlər barədə təqdimatlar olmuşdur.

Tədbirdə Azərbaycanı Vergilər Nazirliyinin Vergi ödəyicilərinə xidmət Baş İdarəsinin əməkdaşı Aynur Məmmədrzayeva təmsil etmişdir.

# Regional innovasiya zonası yaradılır

**Prezident İlham Əliyevin imzaladığı «Azərbaycan Respublikasında informasiya cəmiyyətinin inkişafına dair Milli Strategiyanın həyata keçirilməsi üzrə 2016-2020-ci illər üçün Dövlət Proqramı»nın təsdiq edilməsi haqqında sərəncama əsasən, ölkənin tranzit informasiya dəhlizi imkanlarının genişləndirilməsi, rəqabətqabiliyyətli və ixracyönümlü yüksək texnologiyalar sektorunun inkişaf etdirilməsi, texnoloji məhsulların istehsalı və dünya bazarına çıxışına şərait yaradılması nəzərdə tutulub.**

Rabitə və yüksək texnologiyalar nazirinin müavini Elmir Vəlizadə bildirib ki, ortamüddətli strateji plana əsasən, İKT sektorunun dayanıqlı inkişafının təmin edilməsi, alternativ gəlir mənbələrinin yaradılması, yerli bazarların xarici investisiyalar üçün cəlbediciliyinin artırılması, habelə ölkədə qeyri-neft sektorunun davamlı inkişafı məqsədilə yeni innovativ layihələr hazırlanıb. Onların sırasında regional innovasiya zonasının (RİZ) yaradılması mühüm yer tutur. Layihənin tətbiqi ilə bağlı xarici ölkələrin nüfuzlu şirkətləri, o cümlədən ABŞ-ın «Booz Allen Hamilton» şirkəti ilə birgə pilot layihə hazırlanıb. Layihənin texniki detalları və tətbiqi mexanizmi tamamlandıqdan sonra innovasiya zonalarının yaradılmasına başlanılacaq.

Regional innovasiya zonaları çərçivəsində İKT sektoruna aid sahibkarlıq texnoparklarının, elektron avadanlıqların və proqram məhsullarının istehsalı və ixracı üzrə rəqabətqabiliyyətli regional bazarın, xarici ölkələrə geniş elektron xidmətlərin göstərilməsini təmin edən, Qərblə Şərq arasında tranzit informasiya məkanının, həmçinin insan resurslarının inkişafına şərait yaradan universitetin yaradılması da nəzərdə tutulur.

RİZ-in fəaliyyəti, əsasən, 5 məqsədi özündə birləşdirir. Başlıca istiqamət kiçik və orta sahibkarlıq subyektlərində texnoloji innovasiyaların tətbiqini sürətləndirmək, region, o cümlədən Azərbaycan iqtisadiyyatının müxtəlif sektorlarında informasiya texnologiyalarının layihələşdirilməsi və tətbiqi üçün innovasiyalı mühiti təmin etməklə kiçik və orta sahibkarlığın inkişafını stimullaşdırmaqdır. Layihəyə beynəlxalq informasiya resursları mərkəzinin təşkili də daxildir.

İKT məhsullarının ixracı üzrə ixtisaslaşmış «Neuron Texnoloji» şirkətinin rəhbəri İsmayıl Ələkbərov hesab edir ki, yüksək texnoloji məhsulların ixracının stimullaşdırılması, yeni texnologiyaların yaradılması və yayılması üçün müxtəlif stimullaşdırıcı addımlar atılmalı, güzəştli ixrac dərəcələri, digər mallarla müqayisədə diferensial gömrük-vergi dərəcələri tətbiq olunmalıdır. RİZ layihəsinə yeni sərmayələrin, xüsusilə də birbaşa xarici investisiyaların artımına nail olmaq üçün investisiya mühitinin təkmilləşdirilməsi, bu sahəyə sərmayə qoyan İKT şirkətləri, eləcə də yerli, regional və qlobal texnoloji şirkətlər üçün az riskli, innovativ və münbit biznes mühiti təmin edilməlidir. Mütəxəssisin sözlərinə görə, beynəlxalq təcrübədə texnoloji layihələrin tətbiqi zamanı əlverişli tənzimləmə mexanizmi, cəlbedici, stimullaşdırıcı faktorlar, şəffaflıq, aşağı məsrəfli telekommunikasiya xidmətləri, ən son texnoloji avadanlıqlar, rəqabətədavamlı işçi qüvvəsi, dayanıqlı nəqliyyat əlaqələri və İKT bazarının rəqabətqabiliyyətliliyi nəzərə alınmalıdır. Bu cür layihələrin həyata keçirilməsi ölkə iqtisadiyyatında İKT-nin xüsusi çəkisinin artırılmasına, xarici və yerli şirkətlərin, eləcə də potensial investorların Azərbaycan bazarına cəlb edilməsinə, elektron avadanlıqların istehsalı və ixracı üzrə yeni iş yerlərinin yaradılmasına, ən əsası isə ixrac potensialını artırmaqla ölkənin regionun İKT mərkəzinə çevrilməsinə xidmət edəcək. İnnovasiya zonalarının yaradılması büdcədə GKT sektorundan gələn gəlirlərin həcminin 2-3 dəfə artırılmasına imkan verə bilər.

**Elbrus CƏFƏRLİ**

# TAP layihəsi üzrə işlər davam edir

«Trans-Adriatik» (TAP) qaz boru kəməri üzrə indiyədək Albaniyada giriş yolları və körpülərin modernləşdirilməsinin birinci mərhələsinin 92,4 faizdən çoxu başa çatıb. Bu barədə TAP-ın kommunikasiya rəhbəri Lisa Givert deyib: «Hazırda bütün tikinti işlərinə paralel olaraq, boru kəməri üzrə giriş yolları və körpülərin modernləşdirilməsi prosesi davam edir. 60 ton ağırlığında boruəyən texnika və avadanlıq imkan verir ki, uzunluğu 18 metr və ağırlığı 16 ton olan 1000-dən çox borunu kəmərin marşrutu boyunca daha ucqar rayonlara çatdıraq. İndiyədək 48 kilometr yol və 42 körpünü əhatə edən giriş yolları və körpülərin modernləşdirilməsi işlərinin birinci mərhələsinin 92,4 faizdən çoxu başa çatıb».

Qeyd edək ki, 3 min 500 kilometr uzunluğundakı «Cənub Qaz Dəhlizi»nin seqmenti olan TAP layihəsi «Şahdəniz-2»dən hasil olunacaq qazın Yunanıstan və Albaniya vasitəsilə Adriatik dənizindən keçməklə İtaliyanın cənubuna, oradan da Qərbi Avropaya nəqlini nəzərdə tutur. TAP boru kəməri TANAP ilə birləşəcək və Yunanıstanın Türkiyə ilə sərhəddə yerləşən Kipoi ərazisindən başlayacaq. Buradan isə Adriatik dənizi sahillərinə doğru istiqamətlənəcək və İtaliyanın Puqlia bölgəsində sahilə çıxacaq. Boru kəmərinin 2020-ci ildə istismara verilməsi planlaşdırılır.

# Elektron qaimə-faktura vergidən yayınma hallarının qarşısını alır

Prezident İlham Əliyevin imzaladığı 4 avqust 2016-cı il tarixli «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri və vergi inzibatçılığının təkmilləşdirilməsi barədə» sərəncamında nəzərdə tutulan mühüm məsələlərdən biri də elektron qaimə-faktura sisteminin tətbiqidir.

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi Samirə Musayeva bildirib ki, elektron qaimə-fakturaların tətbiqinə dair qanunvericiliyə dəyişikliklərlə bağlı layihə üzərində işlər artıq yekunlaşıb. Layihəyə əsasən, Vergi Məcəlləsində sahibkarlar arasındakı münasibətlərin hüquqi şəkildə tənzimlənməsinə, yəni onların bir-birlərinə təqdim etdikləri mallara görə qaimələrin elektron qaydada təqdim olunmasına dair öhdəliklər müəyyənləşəcək. E-qaimə vasitəsilə, ƏDV-də olduğu kimi, digər vergi növləri üzrə də malların satışı tsikli tam şəkildə elektron qaydada nizamlanacaq, proses vergi orqanları tərəfindən izlənəcək.

E-qaimənin tətbiqinə 2013-cü ildə ƏDV ödəyiciləri üçün başlayıb və nəticə uğurlu olub. Xüsusilə də vergi ödəmələrində mühüm dəyişikliklər baş verib, fakturanın tətbiq olunduğu il dövlət büdcəsinə ƏDV üzrə vergi daxilolmalarının həcmi əvvəlki illə nisbətdə 70% artıb. S.Musayevanın sözlərinə görə, bəzi sahibkarlar apardıqları əməliyyatın özünü gizlətmək istəyirlər, bunun qarşısının alınmasında ən yaxşı metodlardan biri e-qaimənin tətbiqidir. Beynəlxalq təcrübə göstərir ki, qaimə-fakturaların kağız formasında tətbiqi mal, iş və xidmətlər üzrə nəzarətin lazımi səviyyədə təşkil olunmamasına və nəticədə vergidən yayınma hallarına şərait yaradır. Elektron qaimə-faktura sistemi təkcə vergi sahəsi ilə məhdudlaşmır, hazırda maliyyə və bank sektorunun elektron mühasibat sistemləri yeni əsaslar üzərində qurulur, ödəniş sistemlərində dəyişikliklər baş verir, digər sahələrdə hesablaşmaların strukturu təkmilləşdirilir və bütün bu amillər elektron qaimə-fakturanın hüquqi çərçivəsində də dəyişiklikləri labüd edir. Məhz bu baxımdan, elektron qaimə-faktura inzibatçılıq xərclərinin aşağı salınmasında, məlumat mübadiləsinin çevikliyinin artırılmasında və aparılan əməliyyatlarda şəffaflıq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır.

Vergi orqanı əməkdaşları indiyədək Avropa Komissiyasının dəstəyi ilə TAIEX Texniki Yardım Proqramı çərçivəsində elektron-qaimənin tətbiqi ilə bağlı təlimlərdə iştirak edib, xarici ölkələrin təcrübəsini mənimsəyiblər. Vergilər Nazirliyində işçi səfərdə olan TAIEX-in ekspertləri Avropa İttifaqına üzv ölkələrdə e-qaimənin tətbiqinin hüquqi və inzibati mexanizmləri, müxtəlif biznes strukturlarının ondan istifadə təcrübəsinə dair qanunvericilik, vergidən yayınmanın qarşısının alınmasında e-qaimənin rolu və digər maraq doğuran məsələlərlə bağlı təlim keçiblər. Azərbaycanın vergi orqanı əməkdaşlarının qazandığı təcrübə xarici ekspertlər tərəfindən məmnunluqla qarşılanıb. Məsələn, Fransanın vergi administrasiyasının e-qaimə üzrə tanınmış mütəxəssisi Lusien Gimenez azərbaycanlı mütəxəssislərin bu sistemi tətbiq etməyə tam hazır olduqlarını bildirib. Mütəxəssisin fikrincə, Azərbaycanın vergi administrasiyası e-qaimə vasitəsilə biznes sektorunda və kommersiya müəssisələrində vergidən yayınma hallarının qarşısını ala biləcək.

## Azərbaycan e-fakturanın tətbiqi ilə bağlı mexanizmin hazırlanmasında Avropa İttifaqının müvafiq direktivlərinə və təcrübəsinə də böyük əhəmiyyət verib

Elektron qaimə-fakturanın tətbiqinin digər üstünlüyü isə mətbəə xərclərinin və vaxt itkisinin azaldılmasıdır. Yeni layihənin tətbiqi nəticəsində heç bir mətbəəyə müraciət etmədən, əlavə vaxt itkisinə yol vermədən birbaşa internet vasitəsilə real vaxt rejimində elektron qaimə-fakturanı hazırlayıb malın (işin, xidmətin) alıcısına təqdim etmək mümkündür.

S.Musayeva bildirib ki, nazirlik ilk dəfə e-fakturanın tətbiqi ilə bağlı mexanizmin hazırlanmasında Avropa İttifaqının müvafiq direktivlərinə və təcrübəsinə də böyük əhəmiyyət verib.

Azərbaycan e-fakturanın tətbiqi ilə bağlı mexanizmin hazırlanmasında Avropa İttifaqının müvafiq direktivlərinə və təcrübəsinə də böyük əhəmiyyət verib.

Bəs e-qaiməni tətbiq etməyən sahibkarları nə gözləyir? S.Musayeva bildirib ki, müəyyən edilmiş öhdəliklərə riayət olunmadığına görə tətbiq edilən cərimə və sanksiyalar öz qüvvəsində qalır və layihədə e-qaimənin tətbiqindən yayınan sahibkarlar üçün cəza mexanizmi nəzərdə tutulub.

**Elbrus CƏFƏRLİ**

# Vergi ödəyicisinin səsi...

Vergilər Nazirliyi tərəfindən müntəzəm qaydada vergi orqanlarının vergi ödəyicilərinə göstərdiyi münasibəti dəyərləndirmək məqsədilə sorğular keçirilir. Nazirliyin www.taxes.gov.az saytı vasitəsilə həyata keçirilən sorğularda iştirak etməklə vergi orqanlarının fəaliyyətini, vergi orqanı əməkdaşlarının davranışlarını qiymətləndirmək olar.

İndiyədək nazirliyin saytında vergi orqanlarına edilən müraciətlərə baxılması, Vergi Məcəlləsinə edilən əlavə və dəyişikliklər, İnternet Vergi İdarəsinin elektron qutusundan istifadə və digər mövzularla bağlı sorğular keçirilib, vergi ödəyicilərinin bu məsələlərlə bağlı mövqeyi öyrənilib. «Vergi ödəyicisinin səsi» mövzusunda yeni anket sorğusu da bu ənənənin davamıdır. Nazirliyin saytında keçirilən sorğuda iştirak etməklə vergi ödəyiciləri, vətəndaşlar Çağrı Mərkəzinin fəaliyyətini qiymətləndirə biləcəklər. Qiymət 1-10 bal arasında müəyyənləşib. Qeyd edək ki, Çağrı Mərkəzinin qiymətləndirilməsi məqsədilə əvvəllər də buna bənzər sorğular keçirilib.

Sorğuda etibarlılığı ölçmək üçün «Çağrı Mərkəzi tərəfindən sizə vəd verilən müddətdə çətinliyin həll edilməsi», «Müraciətin ilk dəfədən cavablandırılması», «Çağrı Mərkəzi tərəfindən 30 saniyə ərzində daxil olan zənglərin cavablandırılması», «Zəng sifarişləri üzrə əks-əlaqənin yaradılması» sualları əsasında vergi ödəyicilərinə müşahidə etdikləri və gözlədikləri nəticəni 1-10 bal arasında qiymətləndirmək imkanı verilir. Çağrı Mərkəzi vasitəsilə müraciətlərin cavablandırılmasının müddət baxımından qiymətləndirilməsi məqsədilə «Çağrı Mərkəzinin əməkdaşı ilə əlaqə yaratmaq üçün xətdə gözlədiyiniz müddət», «Müraciət vərəqələrinizə cavab verilmə müddəti», «Çağrı Mərkəzinin əməkdaşının çevikliyi», «Çağrı Mərkəzinin əməkdaşının sizi gözlətməsi» suallarını cavablandırmaq lazım gəlir. Zəmanətin qiymətləndirilməsi məqsədilə isə «Çağrı Mərkəzi tərəfindən kommersiya sirrinin qorunması», «Çağrı Mərkəzi tərəfindən verilən cavabların düzgünlüyünə əminlik», «Əməkdaşların bilik və bacarıqları», «Çağrı Mərkəzinə etdiyiniz müraciətlərə verilən cavabların iş prosesində yararlılığı» sorğuları qiymətləndirilir. Sorğuda Çağrı Mərkəzi tərəfindən vergi ödəyicilərinə göstərilən qayğının, səsli menyunun yararlılığının qiymətləndirilməsi üçün də müvafiq suallar əks olunub.




Vergilər Nazirliyi rəsmi saytının istifadəçilərini sorğuda fəal iştirak etməyə çağırır. Bununla Çağrı Mərkəzinin fəaliyyətinin qiymətləndirilməsini birlikdə apara və gələcək fəaliyyətin təkmilləşdirilməsi üçün daha obyektiv nəticə əldə edə bilərik.

**AYTƏN**

# Büdcə gəlirlərinin əsasını vergi gəlirləri təşkil etməlidir



Azərbaycan Dövlət İqtisad Universitetinin «Maliyyə və maliyyə institutları kafedrası»nın müdiri, iqtisad elmləri doktoru, professor Əvəz Ələkbərovun «Vergilər» qəzetinə müsahibəsi

***- Əvəz müəllim, Azərbaycanda həyata keçirilən yeni iqtisadi islahatları necə qiymətləndirirsiniz?***

- Azərbaycan regionun iqtisadi, sosial, mədəni və elmi-texniki potensial baxımından lider ölkəsidir. Belə bir mövqe isə zamanında gerçəkləşdirilən səmərəli innovativ islahatlarsız əldə oluna bilməzdi. Başqa sözlə, yeni iqtisadi islahatları da artıq onilliklər ərzində aparılan müasir idarəetmə mexanizminin daim təkmilləşdirilməsi prosesinin tərkib hissəsi kimi qəbul etmək lazımdır. Dünya iqtisadiyyatının resessiya dövründən çıxma mərhələsini yaşadığı bir zamanda ölkəmizdə səmərəli iqtisadi islahatların aparılmasını yalnız alqışlamaq olar. Bu islahatların fundamental əsasları isə ölkə rəhbərliyinin yürütdüyü düzgün, müasir iqtisadi siyasətlə tənzimlənir. Bu özünü iqtisadiyyatın şaxələndirilməsində, qeyri-neft sektorunun sabit və dinamik inkişafında, aqrar sektorun artımında, regional sosial-iqtisadi inkişaf və infrastruktur layihələrinin gerçəkləşdirilməsində, cəlbedici investisiya mühitinin formalaşdırılması əsasında xarici kapitalın ölkə iqtisadiyyatına yönləndirilməsinin təşviq edilməsində və digər milli əhəmiyyətli lahiyələrin həyata keçirilməsində ifadə edir.

***- Ölkəmizin maliyyə sistemində idarəetmənin təkmilləşdirilməsi istiqamətində bir sıra addımlar atılıb. Bu sahədə əlavə hansı tədbirlərin görülməsinə ehtiyac var?***

- Hələ XX əsrin əvvəllərində dünya siyasi liderlərinin biri tərəfindən «Əgər maliyyə siyasətində uğur əldə edə bilməsək, bütün iqtisadi islahatlarımız müvəffəqiyyətsizliyə duçar olar» fikrinin deyildiyi tarixdən bir əsr keçməsinə baxmayaraq, bu fikir hələ də aktualdır. Çünki maliyyə-kredit sisteminin sağlamlığı bütün iqtisadi proseslərə öz müsbət təsirini göstərir. Digər tərəfdən, möhkəm və sağlam özül üzərində qurulmuş iqtisadi mühit maliyyə sabitliyinə aparan yoldur. Bu baxımdan, ölkəmizdə maliyyə, bank, sığorta, vergi və gömrük sistemində son dövrlərdə atılmış addımları yüksək dəyərləndirmək lazımdır. Bir məqamı xüsusi vurğulamaq istərdim. Dünya təcrübəsi göstərir ki, müasir dövrdə maliyyə sisteminin idarə edilməsində meqotənzimləyiciyə böyük ehtiyac yaranır. Yəni maliyyə sisteminin ayrı-ayrı həlqələrinin muxtar şəkildə deyil, məhz vahid mərkəzdən idarə olunması mühüm önəm daşıyır. Meqatənzimləyici sistemin idarəetmə effektliyini artırmaqla, onun şəffaflığının təmin olunmasına imkan verməklə yanaşı, «davranış hədəfləri obrazının» da dəqiqləşdirilməsinə imkan yaranmış olardı. Bu baxımdan, Maliyyə Bazarlarına Nəzarət Palatasının yaradılması və onun fəaliyyət istiqamətlərinin düzgün müəyyənləşdirilməsi vaxtında atılmış addım kimi dəyərləndirilməlidir. Ölkənin bütün maliyyə, bank, sığorta, investisiya və s. maliyyə-kredit fondları canlı bir orqanizm, saz mexanizm kimi ahəngdar işləməlidir.

***- Milli valyutamızın real bazar dəyərinin tapılması istiqamətində həyata keçirilən islahatları necə dəyərləndirərdiniz?***

- Klassik alman fəlsəfəsinin banilərindən olan Hegelin bir fikrini xatırlatmaq istərdim: «Canlı seyrdən abstrakt təfəkkürə və bundan praktikaya - həqiqəti dərk etməyin, obyektiv reallığı dərk etməyin dialektik yolu belədir». Milli valyuta özündə milli, mənəvi, siyasi, hüquqi və s. komponentlər daşısa da, mahiyyət etibarilə dövlətçilik atributu olsa da, real gerçəklikdə hər şeydən öncə iqtisadi kateqoriya olan pulun ifadə formasıdır. Ümumi ekvivalent rolunu oynayan bu dəyərin açıq bazar iqtisadiyyatı şəraitində «dəyərləndirilməsi» məharət tələb edən bir işdir. Bu baxımdan, ölkəmizin maliyyə-bank sektorunun manatın kursunun dəqiqləşdirilməsi üzrə son dövrlərdə atdığı addımları vacib tədbir kimi dəyərləndirirəm. Eyni zamanda, yuxarıda vurğuladığım kimi, gələcəkdə də ciddi və obyektiv monitorinq, onun əsasında hasil edilən keyfiyyətli elmi əsaslandırma və praktiki nəticələrin səmərəliliyinin müəyyənləşdirilməsi bu sahədəki fəaliyyətin leytmotivi olmalıdır. Bankların sağlamlaşdırma tədbirləri və etibarlılığı üçün təxirəsalınmaz işlər aparılmalıdır. Əhalinin sosial problemlərinin həlli daha da önə çəkilməlidir.

***- İslahatların əsas istiqamətlərindən biri büdcə-fiskal sahəsində təkmilləşdirmələrin aparılmasıdır. Büdcə siyasətində nə kimi dəyişiklikləri vacib hesab edirsiniz?***

- Büdcə iqtisadiyyatın güzgüsüdür. Tibbdə qanın ümumi analizi orqanizmdə gedən proseslər haqqında dəqiq məlumat verdiyi kimi, real dövlət büdcəsinin peşəkar təhlili də iqtisadiyyatda mövcud proporsiyaları dəqiqliklə aşkarlamağa imkan verir. Real vəziyyət aydın olanda diaqnoz qoymaq da asan olur. Məhz elə buna görə də büdcə siyasəti hər bir ölkənin ümumi iqtisadi siyasətinin məhək daşı hesab olunur. Son illərdə optimal büdcə həcminin formalaşdırılması sahəsində xeyli səmərəli işlər görülmüş və perspektivlər müəyyənləşdirilmişdir. Araşdırmalar və elmi təhlillər göstərir ki, müasir dövrdə büdcə xərclərinin səmərəliliyinin və nəticəliliyinin təmin edilməsi olduqca aktual məsələdir. Bunun üçün indikativ yanaşma əsasında büdcə xərclərinin səmərəliliyinin qiymətləndirilməsi metodu təkmilləşdirilməli, o cümlədən, məsələn, sosial və ya investisiya siyasətinin reallaşdırılmasına yönəldilən büdcə xərclərinin səmərəlilik modelinin qurulması, xərclərin səmərəlilik üzrə aqreqativ indikator alətlərinin tətbiqi imkanları reallaşdırılmalıdır. Ümumiyyətlə, xərclər üzrə büdcə-vergi siyasətinin asağıdakı istiqamətlərinə diqqət yetirilməlidir:

- ictimai büdcələrin gəlir və xərclərinin azalması şəraitində mobilləşdirmə siyasətini davam etdirmək;
- sosial və pensiya təminatı üzrə maliyyə dayanıqlığını artırmaq;
- ölkənin müdafiə qabiliyyətini təmin etmək, qeyri-neft sektorunun inkişafında büdcə xərclərinin, habelə bəzən hətta iri maliyyə tutumlu istehsal layihələrinin birbaşa maliyyələşdirilməsində iştirak edərək maliyyə təminatı yaratmaq;
- ölkə iqtisadiyyatının bir çox sahələrində dövlət maliyyəsinin iştirakını mərhələlərlə məhdudlaşdırmaq;
- özəl investisiyaların cəlb olunmasının daha da fəallaşdırılması istiqamətində işləri davam etdirmək və s.

Büdcənin gəlirlər məsələsinə gəldikdə isə, sözün həqiqi mənasında, peşəkar maliyyəçi ustalığı və çevik fəaliyyət əsasında mərkəzləşdirilmiş dövlət fondunun vaxtında və lazımi həcmdə yaradılması başa düşülür. Ən sadə şəkildə desək, çalışmalıyıq ki, büdcənin gəlirlər hissəsinin həcminin əsasını vergili gəlirlər təşkil etsin. Nəzəri baxımdan da əgər büdcə gəlirlərinin əsasını vergilər təşkil etmirsə, mahiyyət etibarilə bu, büdcə xərclərinin büdcə kəsiri ilə maliyyələşdirilməsindən xəbər vermiş olur. Bu baxımdan, ölkənin maliyyə tənzimləyicisi yaxın perspektivdə büdcə gəlirləri üzrə siyasətini aşağıdakı istiqamətlərdə davam etdirməlidir:

- Neft Fondundan büdcəyə edilən transferin tədricən azaldılması;

Azərbaycanın vergi sistemində aparılmış genişmiqyaslı islahatlar nəticəsində ölkəmizdə müasir beynəlxalq standartlara cavab verən vergi xidmətinin formalaşdırılmasına nail olunmuşdur

- qeyri-neft gəlirlərinin büdcə gəlirlərində xüsusi çəkisinin artırılması;
- dövlət büdcəsinə hesablanmış vergi daxilolmalarının yığım əmsalının artırılması;
- gömrük sistemində şəffaflığın daha da artırılması əsasında bu sahədə daha azpilləli sistemə keçidin təmin olunması üçün işlərin davam etdirilməsi.

***- Azərbaycanda həyata keçirilən vergi siyasəti barədə fikirlərinizi bilmək istərdik...***

- Əvvəla onu qeyd etmək istərdim ki, müstəqillik illəri ərzində Azərbaycanın vergi sistemində aparılmış genişmiqyaslı islahatlar, həyata keçirilmiş kompleks tədbirlər və konkret hədəflərə yönəlmiş siyasət nəticəsində ölkəmizdə müasir beynəlxalq standartlara cavab verən vergi xidmətinin formalaşdırılmasına nail olunmuşdur. Bu da nəzərə alınmalıdır ki, iqtisadi həyat durmadan yenilənir, təkmilləşir və inkişaf edir. Bu baxımdan, vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması və ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun olaraq real vergi potensialının və vergi yükünün müəyyən olunması üçün vergi sistemində islahatların davam etdirilməsi və vergi inzibatçılığının daha da təkmilləşdirilməsi zəruridir.

Ölkəmizdə vergi sisteminin təkmilləşdirilməsi sahəsində mühüm hadisələrdən biri də dövlət başçısının bu ilin avqust ayının 4-də imzaladığı «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında sərəncamıdır. İslahatların əsas istiqamətlərinə gəldikdə isə onları elmi cəhətdən əsaslandırılmış oriyentirlər kimi qiymətləndirərdim. Perspektivli istiqamətlər kimi, məsələn, «Könüllü vergi açıqlaması» («Voluntary tax disclosure») sisteminin tətbiqi və təşviqi mexanizminin hazırlanması, «Vergi öhdəliklərinin hüquqi nəticələr doğurmazdan əvvəl vergi orqanları ilə razılaşdırılması» («Advance tax ruling») qaydasının müəyyən edilməsini, bundan əlavə, şəffaflığı artırmaq və vergitutma bazasını genişləndirmək üçün beynəlxalq təcrübədə geniş tətbiq olunan «rəqəmsal iqtisadiyyatın» («digital economy») vergiyə cəlb edilməsini və s. göstərə bilərik.

***Müsahibəni hazırladı:***
**Elbrus CƏFƏRLİ**

# Muzdla çalışanların fəaliyyətinin rəsmiləşdirilməməsi ciddi qanun pozuntusudur

İqtisadiyyatda şəffaflıq və hesabatlılığın artırılması, təsərrüfat subyektlərində maliyyə intizamının, əmək bazarına nəzarətin gücləndirilməsi, vergidən yayınma hallarına qarşı mübarizə tədbirlərinin daha da genişləndirilməsi Azərbaycan hökumətinin qarşısında duran mühüm vəzifələrdəndir. Bu sahədə çoxlu sayda işlər görülsə də, qanunvericilikdə bir sıra təkmilləşdirmələr aparılsa da muzdlu işlə əlaqədar əməkhaqqından tutulan gəlir vergisi barədə vergi orqanlarına təqdim olunan hesabatların reallığı əks etdirməməsi hallarına hələ də rast gəlinir.

Müşahidələr göstərir ki, bəzi işəgötürənlər vergi və ödənişlərdən yayınmaq məqsədilə qanunvericiliyin tələblərini pozaraq işçilərlə əmək müqaviləsi bağlamır, rəsmiləşdirilmə işlərini tam yerinə yetirmədən insanları işlərin görülməsinə cəlb edirlər. Bundan başqa, iqtisadiyyatın ayrı-ayrı sektorlarında çalışan vergi ödəyicilərinin muzdlu işlə əlaqədar təqdim etdiyi vergi bəyannamələrindəki əməkhaqqı məbləğləri təsərrüfat subyektinin real potensialı, eləcə də həmin sektor üzrə fəaliyyət göstərən və əməkhaqlarının düzgün müəyyən edilməsinə üstünlük verən vergi ödəyicilərinin göstəriciləri ilə uzlaşmır, bəzi hallarda isə bir neçə dəfə aşağı olur. Hətta işçilərinin sayı, əmlakı və dövriyyəsinin həcmi daha çox olan müəssisələrdə direktor, baş mühasib, menecer kimi vəzifələr üçün müəyyənləşdirilmiş əməkhaqları sıravi işçilər üçün nəzərdə tutulan məbləğlərlə eyni olur. Bəzi işəgötürənlər vergi öhdəliklərini və sosial sığorta ayırmalarını minimallaşdırmaq məqsədilə işçilərlə əmək müqaviləsi əvəzinə mülki-hüquqi xarakterli xidmət müqavilələri bağlayırlar. İşəgötürənlər iş yerlərini rəsmiləşdirməməklə vergidən yayınma halları ilə yanaşı, muzdla çalışan işçilərin əmək hüquqlarını pozur, onları gələcək dövlət sosial təminatından da məhrum edirlər.

Dövlət Statistika Komitəsinin məlumatına görə, 2016-cı il avqustun 1-i vəziyyətinə ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin sayı 1 milyon 521,1 min nəfər olmuş, onlardan 888,8 min nəfəri iqtisadiyyatın dövlət sektorunda, 632,3 min nəfəri isə qeyri-dövlət sektorunda fəaliyyət göstərmişdir. 2016-cı ilin yanvar-iyul aylarında ölkə iqtisadiyyatında muzdla çalışan işçilərin orta aylıq nominal əməkhaqqı əvvəlki ilin müvafiq dövrünə nisbətən 6,6 faiz artaraq 489,3 manat olmuşdur.

Ancaq statistik göstəricilər heç də reallığı tam əks etdirmir. Çünki özəl bölmədə muzdla işləyənlərin sayının və onların orta aylıq əməkhaqqının daha çox olduğunu hər kəs bilir. Bəzən bir sıra böyük şirkətlərdə guya 3-4 nəfərin işləməsi ilə bağlı vergi orqanlarına hesabatlar təqdim olunur. Xüsusilə ticarət, xidmət və iaşə sahələrində belə hallara daha çox rast gəlinir. Vergi orqanları vergi ödəyiciləri ilə əməkdaşlıq şəraitində bu problemlərin həllinə nail olmağa çalışır. Qanunları dəfələrlə pozanlar isə ciddi cəzalandırılır. Əmək müqaviləsi bağlamadan işləri (xidmətləri) yerinə yetirdiyi aşkar edilən hər bir şəxs üzrə 1000 manat məbləğində maliyyə sanksiyası və yayındırılmış vergi məbləğləri bərpa edilərək digər sanksiyalar tətbiq olunur. İnzibati Xətalar Məcəlləsinin 192.1-ci maddəsinə əsasən, Əmək Müfəttişliyi tərəfindən əmək müqaviləsini bağlamadan işəgötürənlər tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsinə görə fiziki şəxslər 1000 manatdan 2000 manatadək, vəzifəli şəxslər 3000 manatdan 5000 manatadək, hüquqi şəxslər isə 20.000 manatdan 25.000 manatadək məbləcdə cərimə edilirlər.

Vergi orqanları vergi ödəyiciləri ilə əməkdaşlıq şəraitində mövcud problemlərin həllinə nail olmağa çalışır




Rəsmiləşdirilməmiş iş yerlərinin aşkara çıxarılması və qanunu pozanların məsuliyyətə cəlb olunması ilə əlaqədar, digər dövlət qurumları ilə yanaşı, Vergilər Nazirliyinin həyata keçirdiyi kompleks tədbirlər öz müsbət nəticələrini verir. Vergilər nazirinin əmrinə əsasən əmək münasibətləri sahəsində konsepsiya təsdiq edilmiş, muzdlu işlə əlaqədar ödəmə mənbəyindən tutulan vergi bəyannaməsinə 3 nömrəli Əlavə edilmişdir. Konsepsiya vergi nəzarəti tədbirləri ilə əhatə olunan vergi ödəyicilərində vergilərin hesablanmasını muzdlu işlə əlaqədar ödənilmiş gəlir vergisi üzrə uyğunsuzluqların araşdırılması və kənarlaşmalar üzrə fərdi yanaşma prinsipi əsasında müəyyən edir.

Azərbaycanda əmək bazarının sürətli inkişafı, işəgötürənlərlə işçilər arasında münasibətlərin hüquq müstəvisində tənzimlənməsi baxımından, hökumət strukturları ilə yanaşı, həmkarlar ittifaqlarının da üzərinə ciddi vəzifələr düşür. İctimai əsasda fəaliyyət göstərən həmkarlar ittifaqlarının fəaliyyətinin gücləndirilməsi, əmək hüquqlarının təkmilləşdirilməsi prosesinə onların təsir imkanlarının yüksəldilməsi tədricən cəmiyyətin obyektiv tələbatından birinə çevrilməkdədir. Əmək münasibətlərinin qanunvericiliyin tələblərinə uyğun tənzimlənməsi, iş şəraitinin yaxşılaşdırılması, işəgötürənlərin işçilərlə əmək müqavilələri imzalamalarına nail olunması istiqamətində həyata keçirilən tədbirlərdə Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyası (AHİK) da yaxından iştirak edir. Konfederasiya özəl müəssisələrdə ilk təşkilatların - həmkarlar komitələrinin yaradılmasını təşviq edir və bu istiqamətdə lazımi maarifləndirmə işi aparır. Atılan mühüm addımlardan biri də Azərbaycan hökuməti, Həmkarlar İttifaqları Konfederasiyası və Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyası arasında bağlanmış üçtərəfli baş kollektiv sazişdir. Bu saziş işçilərin əməyini, yaşayışını və sərbəst inkişafını təmin edən əlverişli şəraitin yaradılmasına xidmət edir. Sənəddə iqtisadi siyasət, əhalinin gəlirləri və həyat səviyyəsi, əmək bazası və əhalinin məşğulluğu, sosial müdafiə, əmək hüquqlarının müdafiəsi, sosial tərəfdaşlıq və digər sahələrdə hər bir tərəfin öhdəlikləri təfsilatı ilə əks olunub. Əmək Məcəlləsinə görə, işçinin üzərinə düşən vəzifələrin yerinə yetirməməsi səbəbindən, yaxud ixtisara düşərək işdən çıxarılması üçün mütləq həmkarlar ittifaqının yazılı razılığı olmalıdır. Bu razılıq olmadan əmək müqaviləsinə xitam verilə bilməz. Belə hallarla rastlaşan şəxslər həm həmkarlar ittifaqlarına, həm də aidiyyəti dövlət orqanlarına müraciət edib öz hüquqlarını bərpa edə bilərlər.

**Rəşad SADIQOV**

## Vergi ödəyicisinin sualı var...



Samirə Musayeva
Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş İdarəsinin rəisi vergi ödəyicilərinin suallarına cavab verir

# Vərəsəliklə keçmiş mənzilin təqdim edilməsi

***Ərinə məxsus mənzil vərəsəlik qaydasında arvada keçmişdir. Arvad həmin mənzildə 5 (beş) il ərzində qeydiyyatda olduğu halda, bu mənzilin təqdim edilməsi zamanı hansı vergi öhdəlikləri yaranır?***

Mülki Məcəllənin 225.1-ci maddəsinə görə, ərlə arvadın nikah dövründə qazandıqları əmlak, əgər nikah kontraktında və ya onlar arasındakı razılaşmada ayrı qayda nəzərdə tutulmayıbsa, onların ümumi mülkiyyətidir. Ailə Məcəlləsinin 32.1-ci maddəsinə əsasən, nikah müddətində ər-arvadın əldə etdikləri əmlak onların ümumi birgə mülkiyyəti sayılır.

Vergi Məcəlləsinin (VM) 150.1.9-cu maddəsində isə göstərilir ki, yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi (fiziki şəxsin azı 5 il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsi, VM-in 102.1.3.2-ci, 102.1.18-ci, 106.1.16-cı, 144.1.1-ci və 144.1.2-ci maddələrində nəzərdə tutulmuş hallarda təqdim edilmə, həmçinin 221.5-ci maddəsinə uyğun olaraq sadələşdirilmiş vergi hesablanmış tikinti sahələrinin həmin bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxs tərəfindən təqdim edilməsi halları istisna olmaqla) üzrə müqavilələri təsdiq edən notarius ödəmə mənbəyində vergini tutmağa borcludur.

Mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsini (fiziki şəxsin azı 5 il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu yaşayış sahələrinin təqdim edilməsi, həmçinin VM-in 102.1.3.2-ci, 102.1.18-ci, 106.1.16-cı, 144.1.1-ci və 144.1.2-ci maddələrində nəzərdə tutulmuş təqdim edilmə halları istisna olmaqla) həyata keçirən şəxslər sadələşdirilmiş verginin ödəyiciləridir (VM, maddə 218.4.3).

VM-in 218.4.3-cü maddəsində göstərilən şəxslər üçün mülkiyyətində olan yaşayış və qeyri-yaşayış sahələri, o cümlədən bina tikintisi fəaliyyəti ilə məşğul olan şəxslərdən satın alınmış yaşayış və qeyri-yaşayış sahələri vergitutma obyektidir (VM, maddə 219.3-1).

**Qeyd olunanlara əsasən:**

Nikah müddətində ər-arvadın əldə etdikləri mənzil onların ümumi birgə mülkiyyəti sayılır və arvad həmin mənzildə azı 5 (beş) il ərzində yaşayış yeri üzrə qeydiyyatda olduğu halda bu mənzilin təqdim edilməsi ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergidən azaddır.

## RƏQƏMLƏRİN DİLİ İLƏ

**Yanvar-avqust aylarında...**

- Azərbaycan iqtisadiyyatına kredit qoyuluşu milli valyuta ekvivalentində **16713,3 milyon** manat təşkil edib. Onun **13156,1 milyon** manatı uzunmüddətli kreditlər olub.
- İlkin məlumatlara əsasən, Azərbaycanda iqtisadi fəal əhalinin sayı **4 milyon 970,7 min** nəfər olub, onlardan **4 milyon 724,6 min** nəfərini iqtisadi əmək fəaliyyəti ilə məşğul olanlar təşkil edib.
- Ölkədə əsas kapitala yönəldilmiş sərmayədə müəssisə və təşkilatların vəsaitləri **6 milyard 547,1 milyon** manat, bank kreditləri **884,4 milyon** manat, büdcə vəsaitləri **1 milyard 150,7 milyon** manat, büdcədənkənar fondların vəsaitləri **97,7 milyon** manat, əhalinin şəxsi vəsaitləri **294,6 milyon** manat, sair vəsaitlər **24,6 milyon** manat təşkil edib.
- Azərbaycanda kompüter və elektron məhsulların, elektrik avadanlığı istehsalı sahələrində **100,4 milyon** manatlıq məhsul istehsal olunub, əvvəlki ilin müvafiq dövrü ilə bu məhsulların istehsalı **14,8%**, elektrik avadanlığı istehsalı isə **2,2** dəfə artıb.

# Borclu vergi ödəyiciləri üzrə risk qruplarının müəyyən edilməsi

«2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» ölkə başçısının 4 avqust 2016-cı il tarixli sərəncamının 2.9-cu bəndinin icrası məqsədilə hazırlanmış «Borclu vergi ödəyiciləri üzrə risk qruplarının müəyyən edilməsi və borcların, faizlərin və maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması sahəsində vergi ödəyicilərinin maarifləndirilməsi Qaydaları» Vergilər Nazirliyinin Kollegiyası tərəfindən təsdiq edilib.

Qaydaları şərh edən Vergilər Nazirliyinin Vergi cinayətlərinin təhlili və vergi borcunun alınması işinin təşkili Baş İdarəsinin rəis müavini Rəsul Hüseynovun sözlərinə görə, borclu vergi ödəyicilərinin vahid məlumat bazası Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) vasitəsilə formalaşdırılacaq. Həmin məlumat bazasında mövcud olan məlumatlar isə 2 növə - risklər və köməkçi məlumatlara ayrılacaq: «Köməkçi məlumatlar - risklər barədə məlumatlara aid olmayan, vergi ödəyicisi və onun fəaliyyəti barədə təsəvvürün formalaşmasında faydalı olan məlumatlardır. Risklər barədə məlumatlar isə borcun yönəldilməsi üçün mövcud olan real mənbələr barədə, yaxud vergi ödəyicisinin iqtisadi fəaliyyətini əks etdirən göstəricilərə əsasən vergi borcunu ödəmə potensialının olması ilə bağlı məlumatlardır. Risklər barədə məlumatlar əhəmiyyət dərəcəsindən asılı olaraq yuxarı, orta və aşağı risk qruplarına bölünəcək və borclu vergi ödəyiciləri həmin risk qrupları üzrə təsnifləşdiriləcək».

R.Hüseynov qeyd etmişdir ki, qaydalar vergi borcunun ödənilməsi məqsədilə vergi orqanları tərəfindən borclu vergi ödəyiciləri ilə müvafiq maarifləndirmə və məlumatlandırma işləri həyata keçirilməsini də əhatə edir. Bu, həm avtomatlaşdırılmış qaydada, həm də bilavasitə vergi orqanlarının əməkdaşları tərəfindən həyata keçiriləcək: «Avtomatlaşdırılmış qaydada maarifləndirmə və məlumatlandırma tədbirləri zamanı vergi orqanı tərəfindən keçirilmiş vergi nəzarəti tədbirləri (səyyar və kameral vergi yoxlamaları, operativ vergi nəzarəti) nəticəsində dövlət büdcəsinə yaranmış vergi borcları barədə Vergi Məcəlləsinin 65.1-ci maddəsində nəzərdə tutulmuş bildirişlə yanaşı, bildirişin göndərildiyi tarixdə borclu vergi ödəyicilərinin mobil telefonuna avtomatik olaraq qısa SMS-lər göndəriləcək. Bundan başqa, ölkədən getmək hüququnun müvəqqəti məhdudlaşdırılması barədə məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi AVİS-ə işlənildiyi zaman həmin vergi ödəyicilərinin mobil telefonuna avtomatik olaraq qısa SMS-lər və İnternet Vergi İdarəsində yaradılmış elektron qutusuna məktublar göndəriləcək. Eyni zamanda, hesabat dövrü bitdikdən sonra 10 gün müddətində yaranmış vergi borcları barədə borclu vergi ödəyicilərinin mobil telefonuna qısa SMS-lər göndəriləcək. Borclu vergi ödəyicisi İnternet Vergi İdarəsi vasitəsilə «Onlayn kargüzarlıq və E-VHF» və ya «E-bəyannamə bölmələrinə daxil olan zaman ekranda avtomatik olaraq yaranmış vergi borcları, habelə vergi borcunun ödənilməyəcəyi təqdirdə qanunvericiliklə müəyyən edilmiş tədbirlər və məhdudiyyətlər barədə mesaj çıxacaq».

## Borclu vergi ödəyicilərinin vahid məlumat bazası Avtomatlaşdırılmış Vergi İnformasiya Sistemi (AVİS) vasitəsilə formalaşdırılacaq

Vergi orqanlarının əməkdaşları tərəfindən həyata keçirilən maarifləndirmə və məlumatlandırma işlərinə gəldikdə isə, Rəsul Hüseynovun sözlərinə görə, borclu vergi ödəyiciləri tərəfindən vergi orqanlarına yazılı müraciətlər edilən zaman onlara kağız və ya elektron daşıyıcılarla göndərilən cavab məktubuna yaranmış vergi borcları, habelə vergi borcunun ödənilməyəcəyi təqdirdə qanunvericiliklə müəyyən edilmiş tədbirlər və məhdudiyyətlər barədə yazılı arayış əlavə ediləcək: «Bundan əlavə, borclu vergi ödəyiciləri tərəfindən hər hansı xidmətdən istifadə etmək məqsədilə vergi ödəyicilərinə xidmət mərkəzlərinə müraciətlər edilən zaman onlara yaranmış vergi borcları, habelə vergi borcunun ödənilməyəcəyi təqdirdə qanunvericiliklə müəyyən edilmiş tədbirlər və məhdudiyyətlər barədə şifahi məlumat veriləcək. Borclu vergi ödəyiciləri tərəfindən Vergilər Nazirliyinin Çağrı Mərkəzinə zənglər edilərkən onlara da eyni qaydada - yaranmış vergi borcları, habelə vergi borcunun ödənilməyəcəyi təqdirdə qanunvericiliklə müəyyən edilmiş tədbirlər və məhdudiyyətlər barədə şifahi məlumat veriləcək. Maarifləndirmə və məlumatlandırma işlərinin aparılması məqsədilə vergi ödəyiciləri ilə fərdi və ya ümumi şəkildə görüşlər keçirilən zaman, yaxud səyyar xidmətlər göstərilərkən vergi ödəyicilərinin öhdəlikləri onlara xatırladılacaq.

Hər ayın 10-dək Vergilər Nazirliyinin rəsmi internet səhifəsinin müvafiq bölməsində və sosial şəbəkələrdə bu məlumatlar yerləşdiriləcək:

- hər bir risk qrupunu formalaşdıran riskli məlumatların dairəsi;
- borclu vergi ödəyicilərinin risk qrupları üzrə təsnifləşdirilmiş siyahısı;
- istintaqının aparılması Vergilər Nazirliyinin səlahiyyətlərinə aid edilmiş cinayətlər üzrə Cinayət Məcəlləsinin müvafiq maddələri ilə barələrində cinayət işi başlanmış və ya istintaqı yekunlaşdırılaraq məhkəməyə göndərilmiş vergi ödəyicilərinin siyahısı;
- məhkəmənin qanuni qüvvəyə minmiş qətnaməsi ilə ölkədən getmək hüququ müvəqqəti məhdudlaşdırılmış fiziki şəxslərin və ya hüquqi şəxsin icra orqanının rəhbərlərinin siyahısı.

Vergi orqanı tərəfindən vergi nəzarəti tədbirləri keçirilən zaman vergi ödəyicilərinə yaranmış vergi borcları, habelə vergi borcunun ödənilməyəcəyi təqdirdə qanunvericiliklə müəyyən edilmiş tədbirlər və məhdudiyyətlər barədə yazılı arayış təqdim olunacaq».

**Aytən NƏBİYEVA**

# Bəyannamələrin elektron təqdim edilməsi

Vergi Məcəlləsinin 72.2-ci maddəsinə əsasən, vergi hesabatları vergi ödəyiciləri tərəfindən şəxsən və ya hesabatın təqdim edilməsi təsdiq oluna bilən hər hansı digər üsulla (rabitə təşkilatına təhvil verilməsi və ya elektron sənəd formasında) göndərilə bilər. Vergi ödəyicilərinə hesabatların elektron formada təqdim edilməsi üçün istifadəçi kodu, şifrə və parol verilir. Bununla da vergi ödəyicisi vergi orqanına gəlmədən və vergi orqanının əməkdaşı ilə kontakta girmədən, tam şəffaf şəkildə, onun üçün rahat olan mühitdə və istədiyi zamanda bəyannaməni tərtib edərək internet vasitəsilə göndərmək imkanı əldə etmişdir. 2013-cü ildən etibarən Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi fəaliyyətə başlamış və bununla da bütün mövcud e-xidmətlər kimi bəyannamələrin də elektron formada göndərilməsində ASAN imzadan (mobil imza) istifadə mümkün olmuşdur.

Vergi ödəyiciləri arasında aparılan təbliğat işlərinin nəticəsində elektron formada təqdim edilən bəyannamələrin nisbəti ilbəil artır. 2014-cü ildə bəyannamələrin elektron təqdim edilməsi səviyyəsi 91,6 faiz təşkil edirdisə, 2015-ci ildə bu göstərici 95 faizə qədər artmışdır.

Bəyannamələrin elektron formada təqdim edilməsi vergi ödəyiciləri üçün əlavə imkanlar da yaradır. Vergi ödəyicisi bəyannaməni elektron formada göndərməklə öz şəxsi hesab vərəqəsinə baxmaq imkanı əldə edir və büdcəyə olan borcları barədə məlumatlarla tanış ola bilir. Bəyannamənin tərtibatı və göndərilməsi ilə bağlı əlavə məlumat almaq lazım gəldikdə isə Vergilər Nazirliyinin rəsmi internet saytına və ya həmin saytda yerləşən info@e-taxes.gov.az elektron poçt ünvanına məktubla, habelə «195» Çağrı Mərkəzinə müraciət etmək mümkündür.

Vergi qanunvericiliyi hesabatın vaxtında təqdim edilməməsinə və vergilərin vaxtında ödənilməməsinə və yayındırılmasına görə maliyyə sanksiyalarının tətbiq olunmasını nəzərdə tutur. Qanunvericiliyə əsasən, vergi hesabatının verilməməsi və ya fəaliyyətin olmaması barədə arayışı əsas olmadan müəyyən edilən müddətdə təqdim etməyən vergi ödəyicisi vergi orqanının qərarına əsasən 40 manat məbləğində cərimələnir. Bundan başqa, verginin (o cümlədən ödəmə mənbəyində verginin) hesabatda göstərilən məbləği göstərilməli olan məbləğinə nisbətən azaldılmışdırsa, habelə büdcəyə çatası vergi məbləği hesabat təqdim etməməklə yayındırılmışdırsa, vergi ödəyicisinə azaldılmış və ya yayındırılmış vergi məbləğinin 50%-i miqdarında maliyyə sanksiyası tətbiq edilir. Vergi və ya cari vergi ödəməsi müəyyən edilmiş müddətdə ödənilmədikdə, ödəmə müddətindən sonrakı hər bir ötmüş gün üçün (1 ildən çox olmamaq şərtilə) vergi ödəyicisindən və ya agentindən ödənilməmiş vergi və ya cari vergi ödəməsi məbləğinin 0,1%-i məbləğində faiz tutulur.

Vergi ödəyicilərinə göstərilən elektron xidmətlərin genişlənməsi vergi bəyannamələrinin vaxtında təqdim edilməsinə və vergi öhdəliklərinin düzgün yerinə yetirilməsinə də müsbət təsir göstərmişdir.

**Rəşad SADIQOV**

# Lisenziyalaşdırmanın təkmilləşdirilməsi sahibkarlığın inkişafına təkan verir

Azərbaycan qanunvericiliyinə əsasən, 2002-ci ildə ölkədə 59 sahibkarlıq fəaliyyət növü və 107 alt fəaliyyət növü lisenziyalaşdırılan fəaliyyət sahəsi kimi müəyyənləşdirilmişdi. Lisenziya əsasında həyata keçirilən fəaliyyət növlərinin sayının çox olması sahibkarların inzibati yükünü artırmaqla sahibkarlığın inkişafına və iqtisadiyyata investisiya qoyuluşu prosesinə mənfi təsir göstərirdi və bu sahədə islahatların həyata keçirilməsi zərurəti yaranmışdı. Ölkə başçısının «Sahibkarlıq fəaliyyətinin xüsusi razılıq (lisenziya) tələb olunan növlərinin sayının azaldılması, xüsusi razılıq (lisenziya) verilməsi prosedurlarının sadələşdirilməsi və şəffaflığın təmin edilməsi haqqında» 2015- ci il 19 oktyabr tarixli fərmanı ilə lisenziya tələb edən fəaliyyət növlərinin sayı 59-dan 37-yə endirilmiş, yeni verilən, o cümlədən həmin fərmanın qüvvəyə mindiyi gün qüvvədə olan müddətli lisenziyalar müddətsiz müəyyən edilmiş, lisenziyanın verilməsinə görə ödənilən dövlət rüsumunun məbləği iki dəfə azaldılmış, lisenziya verilməsi qaydası sadələşdirilmiş və təkmilləşdirilmişdir. Fərmana əsasən, İqtisadiyyat Nazirliyi tərəfindən «ASAN xidmət» mərkəzlərində dövlət təhlükəsizliyindən irəli gələn hallarla əlaqədar fəaliyyət növləri istisna olmaqla, sahibkarlıq fəaliyyətinin lisenziya tələb olunan bütün növləri üzrə lisenziyaların verilməsi təmin olunmuşdur.

İqtisadiyyat Nazirliyinin Lisenziyalaşdırma və sahibkarlara xidmətlərin göstərilməsi şöbəsi tərəfindən hazırlanmış hesabatda qeyd edilir ki, bəzi sahibkarlıq fəaliyyəti növlərinin lisenziyalaşdırılması sahəsində həyata keçirilmiş tədbirlər nəticə etibarilə lisenziya tələb olunan fəaliyyət növlərinin və lisenziya şərtlərinin dəqiq müəyyən edilməsinə, lisenziyaların verilməsi, yenidən rəsmiləşdirilməsi, fəaliyyətinin dayandırılması, bərpa edilməsi və ləğvi sahəsində şəffaflığın daha da artırılmasına və ümumilikdə ölkədə sahibkarlığın inkişafına müsbət təsir göstərmişdir. Qeyd edilir ki, 2015-ci il noyabrın 2-dən 2016-cı il sentyabrın 1-dək İqtisadiyyat Nazirliyi tərəfindən «ASAN xidmət» mərkəzləri vasitəsilə sahibkarlıq subyektlərinə 2734 lisenziya verilmişdir. Bu lisenziyaların 2415-i (88%) Bakı şəhərinin, 319-u (12%) isə regionların payına düşür. Lisenziyalar, əsasən, əczaçılıq (30%), özəl tibb (19%), tikintisinə icazə tələb olunan bina və qurğuların tikinti-quraşdırma işləri (18%), tikintisinə icazə tələb olunan və barəsində məlumatlandırma icraatı tətbiq olunan bina və qurğuların layihələndirilməsi (6%), maye və təbii qaz təsərrüfatı obyektlərinin quraşdırılması və istismarı (3%), baytarlıq preparatlarının istehsalı və satışı (3%), bitki mühafizə vasitələrinin və aqrokimyəvi maddələrin idxalı (2%), təhsil (2%), dağ-mədən işləri, dağ və buruq qazmalarının aparılması (2%), yanğından mühafizə (1%), qaldırıcı qurğuların, metallurgiya avadanlığının, təzyiq altında işləyən qazanların, tutumların quraşdırılması və təmiri (1%) fəaliyyət sahələrinə verilmişdir.




Lisenziyaların 1406-sı yeni verilmiş, 1328-i isə sahibkarların müraciətləri əsasında müddətsiz lisenziya ilə əvəz edilmişdir.

**AYTƏN**

# «Whistleblow» mexanizminin tətbiqinə hazırlıq gedir

## Bu sistem vergidən yayınmanın qarşısının alınması istiqamətində ən effektiv vasitələrdən hesab olunur

Ölkə başçısının «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında sərəncamı vergi ödəyiciləri ilə vergi orqanları arasında qarşılıqlı etimadın və şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması və ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun olaraq real vergi potensialının müəyyən edilməsi üçün böyük perspektivlər açır.

Sərəncamda vergi sahəsində aparılacaq islahatların istiqamətləri arasında vergidən yayınma hallarının qarşısını almaq məqsədilə beynəlxalq təcrübədə geniş tətbiq olunan ictimai məlumatlandırma («Whistleblow») mexanizminin hazırlanması da yer alıb. Qeyd edək ki, «Whistleblow» pozuntular barədə dövlət qurumlarına və ya ictimaiyyətin məlumatlandırılmasına, «Whistleblower» isə pozuntu barədə məlumat verən şəxsə deyilir...

Vergilər Nazirliyinin Vergi siyasəti və strateji araşdırmalar Baş idarəsinin Vergi siyasəti idarəsinin rəisi Nicat İmanov mövzunu şərh edərək bildirib ki, bu sistem bir sıra ölkələrdə, o cümlədən ABŞ-da da tətbiq olunur və pozuntuların aşkar edilməsi, vergidən yayınmanın qarşısının alınması üçün ən effektiv mexanizmlərdən biri sayılır. Beynəlxalq təcrübədə fiziki şəxslər qarşılaşdıqları pozuntular barədə dövlət orqanına məlumat verir və həmin şəxsə pozuntuya yol verən şəxsdən alınan vəsaitdən müəyyənləşdirilmiş nisbətdə mükafat təqdim olunur: «Ölkəmizdə də bu sistemin tətbiqi istiqamətində işlər həyata keçirilir. İctimai məlumatlandırma mexanizminin tətbiqi ilə vergidən yayınma halını aşkar etmiş və ya belə hallarla rastlaşmış fiziki şəxs bu barədə vergi orqanına məlumat verir. Həmin məlumat əsasında büdcəyə ödənilməsi təmin edilmiş məbləğ hesabına məlumatı çatdıran şəxsə birdəfəlik mükafat verilməsi nəzərdə tutulur.

Fiziki şəxs məlumatı vergi orqanına kağız və ya elektron qaydada təqdim edə bilər. Vergidən yayınma ilə bağlı məlumat verilərkən «Whistleblower»dən təsdiqləyici sübutlar tələb olunacaq. Yalnız məlumat təsdiqləndiyi halda və vergidən yayınma ilə bağlı məlumatdan vergi orqanlarının xəbəri olmadıqda «Whistleblower»in məlumatı qəbul ediləcək və araşdırma aparılacaq. Əks halda isə məlumat qəbul edilməyəcək. Sistemin ölkəmizdə gələn ildən tətbiq olunacağı gözlənilir».

İctimai məlumatlandırmanın tətbiqindən sonra vergi orqanının vergidən yayınma barədə məlumatlılığının artacağı, vergidən yayınan vergi ödəyicilərinə görə vergi qanunvericiliyinə əməl edən vergi ödəyicilərinin vergi yükünün artmasının qarşısının alınacağı, hər kəs üçün bərabər iqtisadi şərait mühitinin yaradılacağı gözlənilir.

### Vergidən yayınma ilə bağlı məlumat verilərkən «Whistleblower»dən təsdiqləyici sübutlar tələb olunacaq

Bu sistemin tətbiqi ilə əlaqədar beynəlxalq təcrübə nəzərə alınmaqla qanunvericilikdə müvafiq dəyişikliklərin aparılması istiqamətində Vergilər Nazirliyi tərəfindən qanun layihəsi hazırlanır.

**Aytən NƏBİYEVA**

### BİR CÜMLƏ - BİR XƏBƏR

Azərbaycanın gələn il üzrə dövlət büdcəsində neftin bir barelinin qiyməti 40 dollar səviyyəsində götürülüb.

2017-ci ildə Azərbaycan Respublikası Dövlət Neft Fondundan dövlət büdcəsinə transfertin həcmi cari illə müqayisədə əhəmiyyətli dərəcədə azaldılacaq.

Türkiyə Azərbaycandan təbii qaz idxalını artırıb.

Azərbaycanlı sahibkarlar Hindistanda keçiriləcək informasiya texnologiyaları konfransına dəvət olunublar.

Venesiyada Azərbaycanın iqtisadi imkanlarının təşviqi ilə bağlı konfrans keçirilib.

Ukrayna şirkətləri ölkəmizdə qənnadı fabriki qurmaq və burada öz məhsullarının satışını həyata keçirmək niyyətindədirlər.

Azərbaycan-Gürcüstan birgə müəssisəsi planşet istehsal edəcək.

Ölkəmizdə sahibkarlar üçün yaradılmış imkanları nəzərə alan İran şirkətləri sərmayə qoyuluşunu artırmaq üçün Azərbaycan hökumətinə yeni layhələr təqdim ediblər.


### ELAN

ASAN imza sertifikatının qüvvədə olma müddəti 3 il olduğundan və 2013-cü ilin avqust və növbəti aylarında alınmış sertifikatların etibarlılıq müddəti 2016-cı ilin avqust və növbəti aylarında bitəcəyindən, ASAN imza sertifikatının yenisini almaq üçün qüvvədə olan ASAN imzanız vasitəsilə www.asxm.gov.az/portal/login portalına daxil olub müvafiq ərizəni, müqaviləni və etibarnamələri imzaladıqdan sonra ASAN imza sim kartını dəyişərək vergi ödəyicilərinə xidmət mərkəzlərinə və ya ASAN xidmət mərkəzlərinə yaxınlaşa bilərsiniz.

ASAN imza ilə əlaqədar əlavə sualınız yaranarsa, Vergilər Nazirliyinin 195-1 Çağrı Mərkəzinə, rəsmi internet saytının «Sual-cavab» bölməsinə www.taxes.gov.az/www.taxes/faq/sual.html və www.asxm.gov.az internet ünvanına müraciət edə bilərsiniz.

Vergilər Nazirliyinin Asan Sertifikat Xidmətləri Mərkəzi


# Vergi islahatları ictimaiyyətin müzakirəsində...

*Ölkə başçısının «2016-cı ildə vergi sahəsində aparılacaq islahatların istiqamətləri»nin təsdiqi və vergi inzibatçılığının təkmilləşdirilməsi haqqında» 4 avqust 2016-cı il tarixli sərəncamı vergi sistemində yeni genişmiqyaslı islahatlar üçün mühüm baza yaradıb. İslahatların əhatə dairəsi, iqtisadi, sosial və ictimai əhəmiyyəti böyük olduğundan geniş ictimai müzakirələrə yol açıb. Müxtəlif ekspertlər, sahibkarlıq subyektlərinin nümayəndələri və iş adamları vergi sistemində gözlənilən dəyişikliklərə, habelə tətbiq edilməsi nəzərdə tutulan yeniliklərə dair öz fikirlərini bildirir, islahatların gözlənilən ictimai faydası barədə diskussiya aparırlar. «Vergilər» qəzeti də bu fikir mübadiləsinə və həyata keçiriləcək vergi islahatlarının ictimai müzakirəsinə töhfə vermək məqsədilə ixtisaslaşmış mütəxəssislərin, dünya təcrübəsinə bələd olan ekspertlərin, sahibkarların ictimai birliklərinin nümayəndələrinin və iş adamlarının mövqeyini işıqlandırır, onların vergi qanunvericiliyi və inzibatçılığı sahəsində təkliflərinə və şərhlərinə öz səhifələrində yer ayırır.*

## Vergi bəyannamələrinin formalarının sadələşdirilməsi üçün zəruri addımlar atılmalıdır



Ramin Ramazanov
*«Accounting.Az LLC» mühasibat və konsaltinq şirkətinin direktoru*

Müasir dövrün iqtisadi tələbləri vergi sisteminin bir çox istiqamətlərinə yeni yanaşmanı, rasional islahatların aparılmasını zəruri edir. Müxtəlif vaxtlarda ayrı-ayrı vergi dərəcələrinə dəyişikliklər edilsə də, bəzi vergi növləri son 10 ildə dəyişməz olaraq qalıb. Hazırkı iqtisadi şəraitə, dünyada baş verən yeniliklərə və ölkəmizdə sahibkarlığın stimullaşdırılması ilə bağlı həyata keçirilən siyasətə uyğun olaraq bəzi vergi dərəcələrinin dəyişdirilməsi, xüsusilə də ƏDV-nin diferensiallaşdırılması labüdlüyü yaranıb. Ona görə də şəffaflığın daha da artırılması, sahibkarlara əlverişli şəraitin yaradılması və ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun real vergi potensialının müəyyən edilməsi üçün vergi sistemində islahatların davam etdirilməsi və vergi inzibatçılığının daha da təkmilləşdirilməsi aktualdır. Hazırkı dövrdə islahatlar vergi dərəcələrinin optimallaşdırılmasını və vergi yükünün azaldılmasını, investisiya mühitinin yaxşılaşdırılmasını, kiçik və orta sahibkarlığın stimullaşdırılmasını, həmçinin vergi sisteminin beynəlxalq tələblərə tam uyğunlaşdırılmasını əhatə etməlidir.

Hesab edirik ki, ƏDV-yə yeni yanaşma kiçik və orta sahibkarlıq subyektlərinin fəaliyyətini və vergi yükünü optimallaşdıra bilər. ƏDV-nin diferensiallaşdırılması ticarət sahəsində mühasibat və digər uçot məsələlərinin qanuni şəkildə nizamlanmasına imkan verəcək, ticarət və xidmət sektorunda əlverişli rəqabət mühiti yaradacaq.

Hazırda real vergi potensialının düzgün müəyyən olunması, vergi nəzarətinin keyfiyyətinin artırılması və nəzarət tədbirlərində də bir sıra problemlər meydana çıxır. Bu sahədə şəffaflığın təmin edilməsi məqsədilə informasiya texnologiyalarının nailiyyətlərindən istifadə olunmaqla risklərin avtomatik emal edilməsinə, təsnifləşdirilməsinə və təhlilinə ehtiyac var. Bu məqsədlə vergi ödəyicilərinin risk meyarları üzrə qruplaşdırılmasına imkan yaradan qiymətləndirmə sisteminin yaradılması müsbət nəticə verə bilər. Eləcə də borclu vergi ödəyiciləri üzrə risk qruplarının müəyyən edilməsi və aid olduqları risk qrupundan asılı olaraq borcların, faizlərin və maliyyə sanksiyalarının dövlət büdcəsinə alınması sahəsində vergi ödəyicilərinin maarifləndirilməsi ən aktual məsələ olmalıdır. Bu istiqamətdə inzibatçılığın təkmilləşdirilməsi üçün yeni alətlərin tətbiqi vacibdir.

İslahatlar çərçivəsində bəyannamələrin tərtibatında dəyişikliklər edilməsi, xüsusən e-bəyannamənin təkmilləşdirilməsi üçün zəruri addımlar atılmalıdır. Bunlarla bərabər, peşəkar audit bazarının iştirakçısı kimi vergi qanunvericiliyində aşağıda göstərilən bəzi məqamların dəyişikliklər zamanı nəzərə alınmasını məqsədəuyğun hesab edirik:

1) Vergi Məcəlləsinin 151.2 maddəsinin tətbiqi ilə bağlı vergi ödəyiciləri müəyyən çətinliklərlə qarşılaşırlar. Məsələn, şirkətin dövriyyəsi yüksək olsa da xərcləri də artır və zərərlə işləyir, buna baxmayaraq, müəssisə məcburən cari mənfəət vergisi ödəməlidir. Təklif edirik ki, vergitutma rüblük gəlirin həcminə görə deyil, rüblük mənfəətə görə hesablansın.

### VÖEN-i olan fiziki şəxslərin icarəyə görə vergini özlərinin bəyan etməsi məqsədəuyğundur

2) Vergitutmanın sadələşdirilməsi üçün VÖEN-i olan fiziki şəxslər icarəyə görə vergini özləri bəyan etsinlər (əsasən də hüquqi şəxslərlə bağlanmış müqavilələr üzrə).

3) Vergi yoxlamalarının müddəti iki həftəyədək azaldılsın.

4) Ötən illərin zərəri 5 il müddətində deyil, növbəti 7 ildə nəzərə alınsın.

## Yoxlamaların həyata keçirilməsinin effektivliyini təmin etmək üçün avtomatik rejimdən geniş istifadə olunmalı, yoxlama və nəzarət onlayn formada aparılmalıdır



Taleh Qasımov
*«Karmen» şirkətinin rəhbəri*

Sahibkarlıq subyekti olaraq, biz Azərbaycan iqtisadiyyatının inkişafına təkan verə biləcək yeni islahatları - vergi, gömrük, fiskal siyasətin təkmilləşdirilməsini müsbət qarşılayırıq. Çünki islahatlar mahiyyət etibarilə sahibkarlıq təbəqəsinin daha da möhkəmlənməsi, inkişaf etməsi, iqtisadiyyatda aparıcı qüvvəyə çevrilməsinə əlverişli zəmin yaradır. Son illərdə Azərbaycanın ixrac imkanlarının artmasına, milli iqtisadiyyatın rəqabət qabiliyyətinin formalaşmasına təkan verən gömrük və vergi rejimlərinin optimallaşdırılması yeni mərhələyə qədəm qoyub.

Hazırda davam etdirilən islahatlarda sahibkarların açıq dialoqlara dəvət olunması, onların rəy və təkliflərinin öyrənilməsi gələcəkdə biznes-dövlət platformasının yeni müstəvidə inkişafına imkan verəcək. Hesab edirik ki, postneft erasının başlandığı bir dövrdə qeyri-neft sektorunun inkişafı, dövlət büdcəsinə vergi daxilolmalarının və sahibkarlığın inkişafı sayəsində əlavə vergi ödənişlərinin təmin edilməsi baxımından indiki islahatların həyata keçirilməsi mütərəqqi addımdır.

Vergi sistemində uzun illərdir islahatlar aparılır və bu prosesin qarşıdakı illərdə də davam etdiriləcəyi şübhə doğurmur. Çünki ölkə iqtisadiyyatının davamlı inkişaf tempinə uyğun olaraq vergi potensialının və bazasının artırılması, inzibatçılığın təkmilləşdirilməsi vacibdir. Bu mənada, vergi sistemində aparılan yeni islahatlar zərfində biznesin təkliflərinə önəm verilməsi qarşılıqlı partnyorluğun yaranmasına, şəffaflığın möhkəmlənməsinə xidmət edəcək.

Biznes nümayəndəsi olaraq biz islahatlarda nəyi görmək istərdik, vergi qanunvericiliyində hansı dəyişikliklərin nəzərə alınmasını təklif edərdik? Hesab edirik ki, idxal mallarına tətbiq olunan ƏDV-nin dərəcələri arasında fərqlər olmalıdır. Bu məsələdə ilk növbədə sosial ədalət prinsipi əsas götürülməlidir. Məsələn, «Mersedes» avtomobili ilə çörək və əsas qida tələbatı məhsulları arasında ciddi fərq qoyulmalıdır. Qardaş Türkiyədə diferensiallaşdırılmış vergi mexanizmi daha geniş tətbiq olunur. Məsələn, un məhsullarının növünə görə fərqli ƏDV mövcuddur. Kəpəyə görə ən aşağı dərəcə ilə ƏDV tutulur. Məqsəd ölkədə heyvandarlığın inkişafına stimul verməkdir.

Vergi sahəsində yoxlamaların təkmilləşdirilməsi ən aktual məsələlərdəndir və bu prosesin inkişaf etmiş ölkələrdəki vəziyyətə uyğunlaşdırılması olduqca vacibdir. Yoxlamaların qaydaları, mexanizmi tam açıq və aydın olmalı, sahibkarın fəaliyyətinə maneə yaratmamalıdır. Məsələn, bəzi hallarda keçmiş fəaliyyət dövrünə aid yoxlamalar aparılır, bu isə biznes nümayəndəsinin maya dəyərini və digər xərclərini nəzərə almasında çətinliklər yaradır. Fikrimizcə, effektivliyi təmin etmək üçün yoxlama onlayn formada aparılmalı, sahibkar qanun pozuntusuna yol verdikdə onun anında aradan qaldırılması mexanizmi, nəzarət sisteminin tamamilə avtomatlaşdırılması məqsədəuyğundur. Bununla yanaşı, sahibkarlıq subyektinin keçmiş fəaliyyət dövrünə aid yoxlamaların mexanizmi tapılmalı, ümumiyyətlə, yoxlama konkret dövrü əhatə etməli, maliyyə hesabatlılığının düzgün aparılıb-aparılmaması dövrü həmin ana aid olmalı və yekunlaşmalıdır. Bu, tərəflər arasında bütün şübhələrə son qoymuş olar. Kameral vergi yoxlamalarının aydın, şəffaf və ədalətli hesablama metodologiyası üzrə aparılması istiqamətində aparılan işlər bu sahədə çox mütərəqqi addım olacaq. Yoxlamaların həyata keçirilməsinin vergi bəyannamələrinin təqdim edildiyi gündən sonrakı 30 gün müddəti ilə məhdudlaşdırılması indiyədək yaranan mübahisələrə son qoyacaq, hər iki tərəfi sivil formada öz öhdəliklərini icra etməyə dəvət edəcək.

Yoxlama, əsasən, fəaliyyəti şübhə doğuran sahibkarlıq subyektlərində aparılmalı, digər şirkətlərin istehsal və satış fəaliyyəti elektron qaydada nəzarətdə saxlanılmalı, hamı üçün eyni addım atılmamalıdır. Bu, vergi orqanlarının işini də asanlaşdırar. Bundan başqa, vergi hesabatlarının sadələşdirilməsi üçün elektron qaydada vahid mərkəzdən idarəetmə sisteminin yaradılması yaxşı olardı.

### Vergi hesabatlarının sadələşdirilməsi üçün elektron qaydada vahid mərkəzdən idarəetmə sisteminin yaradılması düzgün addım olardı

Yeri gəlmişkən, həm də Azərbaycandan kənarda fəaliyyət göstərən şirkət olaraq, biz Gürcüstanın ən yaxşı nümunəvi vergi ödəyicilərindənik, qeyri-neft vergi ödəyicilərinin «qızıl onluğu»nda yer alırıq. Bu isə həmin ölkədə şirkətimizin vergi yoxlamalarından azad olunmasına səbəb olub. İnanıram ki, Azərbaycanda da nümunəvi vergi ödəyiciləri qrupu müəyyən olunarkən bu cür mexanizmlər tətbiq ediləcək.

Daha bir təklifimiz ixrac zamanı ƏDV-nin geri qaytarılmasında yaranan çətinliklərin aradan qaldırılmasıdır. İxracla məşğul olan şirkətlər bəzi hallarda ixrac etdikləri mallara görə geri ödənilməli olan ƏDV-ni gec alırlar, bu isə onların növbəti istehsal və ixrac əməliyyatlarına təsir edir. Ona görə də iqtisadi strukturların, o cümlədən vergi orqanlarının bu məsələni nəzərə almaları vacibdir. Bu, milli ixracın artmasına, stimullaşmasına müsbət təsir göstərə bilər.

İslahatlar çərçivəsində şəffaflığın möhkəmlənməsinə xidmət edən bir sıra alətlərin tətbiqi nəzərdə tutulub. Onlardan birinin - elektron qaimə-fakturanın əhəmiyyətini xüsusi qeyd etmək istərdim. Bu, vergi orqanı üçün əhəmiyyət daşımaqla yanaşı, sahibkara da faydalıdır. Çünki e-qaimə sistemi sahibkarı əlavə «başağrısından» xilas etməklə yanaşı, qiymətlərlə bağlı şübhələrə də son qoyacaq.

***Hazırladı:* Elbrus CƏFƏRLİ**

# Ailə biznesi «abadlaşdırılır»

Prezident İlham Əliyevin fərmanı ilə «ASAN xidmət»in tabeliyində ABAD (Ailə Biznesinə Asan Dəstək) mərkəzləri publik hüquqi şəxsi yaradılacaq. ABAD mərkəzləri vasitəsilə ailə təsərrüfatlarına, kiçik və orta sahibkarlara dəstək veriləcək, onların öz bizneslərini fəallaşdırmalarına lazımi şərait yaradılacaq. Bu tədbirlərə ailə biznesinə maliyyə və təşkilati dəstək, ailə şirkətlərinin istehsal etdikləri məhsulların standartlaşdırılması, biznes planlarının hazırlanması, brendiq və hüquqi yardım xidmətləri aiddir.

İqtisadiyyat Nazirliyinin İqtisadi İslahatlar Elmi-Tədqiqat İnstitutunun aparıcı elmi işçisi Pərviz Heydərovun sözlərinə görə, bu fərman ölkənin sosial-iqtisadi inkişafında vətəndaşların fəal iştirakını təmin etmək, ailə əməyinə əsaslanan təsərrüfatların fəaliyyətini dəstəkləmək, kiçik və orta sahibkarlığın inkişafını stimullaşdırmaq, əhalinin məşğulluğunu artırmaq sahəsində əlavə imkanlar yaratmaq məqsədi daşıyır və bu addımın atılması müasir iqtisadi islahatlar çərçivəsində böyük əhəmiyyətə malikdir: «Bazar iqtisadiyyatı şəraitində ümumi iqtisadi artımda əsas pay kiçik və orta ölçülü sahibkarların üzərinə düşür, bu baxımdan, xırda sahibkarlıq fəaliyyəti iqtisadi proseslərdə həlledici rol oynayır. Bunu inkişaf etmiş ölkələrin real iqtisadi vəziyyətindən, habelə təcrübəsindən əyani şəkildə görmək mümkündür. Bu ölkələrdə dövlət büdcəsinin gəlirlərinin böyük hissəsi məhz kiçik və orta sahibkarlar tərəfindən təmin edilir. Doğrudur, ölkəmizin iqtisadiyyatında da kiçik və orta sahibkarlıq daim diqqət mərkəzində olub, bu sahəni inkişaf etdirməyə və genişləndirməyə böyük əhəmiyyət verilib. Ancaq indiki iqtisadi şəraitdə bu sahədə islahatların aparılması üçün radikal addımların atılmasına və məsələyə daha geniş kontekstdə baxılmasına ehtiyac var.

Əvvəla, dövlət dəstəyi təkcə maliyyə yardımından, bu və ya digər güzəştlərin verilməsindən və bazarlara çıxışın təmin edilməsindən asılı ola bilməz. Əlavə tədbirlər də görülməli, keyfiyyətə diqqət yetirilməlidir. Mikrosahibkarlıq sahəsində isə bunun tərkib hissəsini müvafiq idarəetmə mexanizminin yaradılması, bütün istiqamətlərdə güclü, bütöv və kompleks şəkildə himayəçilik siyasəti yeridilməsi təşkil edir.

İkincisi, bizdə mövcud olan kiçik və orta sahibkarlıq meyarlarına görə, işçilərinin orta siyahı sayı 25 nəfərə kimi, illik gəliri isə 200 min manatadək olan müəssisələr kiçik, işçilərinin orta siyahı sayı 25 nəfərdən 125 nəfərədək və 200 min manatdan 1250 min manatadək olan müəsissisələr isə orta sahibkarlar sayılır... Məsələ bundadır ki, göstərilənlərdən aşağı meyarlara malik təsərrüfat sahibləri və yaxud biznes fəaliyyəti göstərən subyektlər də vardır ki, buraya ailə təsərrüfatları daxildir. Bu təsərrüfat subyektlərini bilavasitə kiçik sahibkarlıq üçün bir növ başlanğıc və ilkin baza - rüşeym də adlandırmaq mümkündür».




P.Heydərov əlavə etmişdir ki, dövlət başçısının fərmanı ilə ABAD mərkəzlərin həyata keçirəcəyi tədbirlər ölkədə mikrosahibkarlığı inkişaf etdirməklə qeyri-neft sektorunun möhkəmlənməsinə birbaşa yardım edəcək. Pilot layihə çərçivəsində bu mərkəzlərin fəaliyyətə başlaması üçün 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan dövlət başçısı yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinə 1 milyon manat ayrılması məsələnin nə qədər vacib və aktual olduğundan xəbər verir.

Qeyd edək ki, Azərbaycanda əmək qabiliyyətli əhalinin 40 faizə yaxın hissəsi məhz aqrar sektorun əhatə etdiyi ərazilərdə, yəni regionlarda məskunlaşıb. Odur ki, ailə təsərrüfatçılığının, başqa sözlə desək, mikrosahibkarlığın inkişafı və genişlənməsi bilavasitə aqrar sektorun tərəqqisi ilə nəticələnəcək ki, bu da məşğulluq probleminin həllinin 70-80 faiz yüngülləşməsi üçün zəmin yaradacaq

**Fəxriyyə İKRAMQIZI**

# Qanunu pozan sığorta agentlərinin lisenziyaları ləğv edildi

Azərbaycan Maliyyə Bazarlarına Nəzarət Palatasının (MBNP) Direktorlar Şurasının 23 sentyabr 2016-cı il tarixli qərarına əsasən, 2 hüquqi və 86 nəfər fiziki şəxsin sığorta vasitəçisi fəaliyyəti üçün verilmiş lisenziyaları ləğv edilib.

MBNP-dən «Trend»ə verilən məlumata görə, «Lider Sığorta Agentliyi» MMC-nin lisenziyasının ləğv olunmasına səbəb «Sığorta fəaliyyəti haqqında» Qanunun 6-cı maddəsinin tələblərinə riayət etməyərək sığorta sirri hesab edilən məlumatların yayılmasına şərait yaratması və qanunun 84.1.2.3-cü maddəsinin tələblərini pozaraq cəmiyyətə lisenziya verilməsi üçün əsas götürülmüş rəhbər vəzifəyə təyin ediləcək şəxs barədə yalnış məlumatlar verməsidir. «Lider Sığorta Agentliyi» MMC-də aparılmış yoxlama zamanı hesabatların təqdim edilməməsi və hesabatların natamam tərtib edilməsi ilə yanaşı, onların təhrif edilməsi, sığorta sirri ilə bağlı müqavilələrin rəsmiləşdirilməsi zamanı sığorta qanunvericiliyinin tələblərinə riayət edilməməsi, lisenziya verilməsi üçün əsas götürülmüş sənədlərdə əks olunmuş səhv və yalnış məlumatlarla bağlı faktlar aşkar edilib. Yoxlama zamanı müəyyən edilib ki, «Lider Sığorta Agentliyi» MMC fəaliyyət dövrü ərzində 526.762 sığorta müqaviləsi üzrə ümumilikdə 93.418.418 AZN sığorta haqqı toplayıb və bunun müqabilində komisyon muzd əldə edib. Yoxlama zamanı «Lider Sığorta Agentliyi» MMC-nin hesabatlarında məlumatların təhrif edilməsi faktı aşkar edilib. 2014-cü il ərzində sığorta müqavilələrinin bağlanmadığı açıqlansa da, MMC tərəfindən 2014-cü ilin 9 ayı ərzində 157.783 müqavilə bağlandığı, 32.350.476 AZN sığorta haqqının toplandığı aşkar olunub.

Direktorlar Şurasının qərarı ilə sığorta agenti fəaliyyəti ilə məşğul olan daha 1 hüquqi şəxs ilə yanaşı, 85 nəfər fiziki şəxsin də lizensiyaları ləğv edilib. Lisenziyaların ləğvi 9 halda könüllü, 78 halda isə məcburi qaydada olub. Lisenziyaların məcburi ləğvinə səbəb sığorta vasitəçilərinin qanunun tələblərini pozması ilə əlaqədardır. MBNP-nin Direktorlar Şurasının digər qərarına əsasən isə rüblük hesabatlarını maliyyə bazarlarına nəzarət orqanının müəyyən etdiyi formada Palataya təqdim etmədiklərinə görə, sığorta agentləri fəaliyyətinə lisenziya almış 78 nəfər fiziki şəxsin lisenziyalarının qüvvəsi 3 ay müddətinə dayandırılıb.

Lisenziyaları ləğv edilmiş sığorta agentlərinin siyahısı KİV vasitəsilə ictimaiyyətə açıqlanıb.

# Dövlət siyasətinin prioritet sahələrindən biri...

Sahibkarlığa Kömək Milli Fondunun Ağstafa rayonunun Göycəli kəndində keçirdiyi növbəti işgüzar forumda sahibkarlara güzəştli kreditlərin verilməsi mexanizmi barədə məlumat verilib, rayonda həyata keçirilməsi məqsədəuyğun hesab olunan nümunəvi layihələr təqdim olunub. 90-a yaxın sahibkarın iştirak etdiyi forum çərçivəsində Ağstafa rayonunun iqtisadi potensialının reallaşdırılması məqsədilə prioritet hesab olunan iri taxılçılıq, kartofçuluq, cins heyvandarlıq, istixana və arıçılıq təsərrüfatlarının, pendir istehsalı müəssisəsinin yaradılması üzrə nümunəvi investisiya layihələrinin təqdimatı keçirilib, kiçik həcmli investisiya layihələrinin ümumi dəyərinin əsas hissəsinin dövlətin güzəştli kreditləri hesabına maliyyələşdiriləcəyi bildirilib, sahibkarlara nümunəvi layihələr və metodiki materiallar paylanıb.

Sahibkarlığa Kömək Milli Fondunun icraçı direktorunun müavini Arif Vəliməmmədov bildirib ki, 2016-cı ildə 1769 sahibkara 102,7 milyon manat məbləğində güzəştli kredit verilib. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması 5500-ə yaxın yeni iş yerinin yaradılmasına imkan yaradır. Qeyd edilib ki, indiyədək ümumilikdə Gəncə-Qazax iqtisadi rayonunda fəaliyyət göstərən sahibkarlıq subyektlərinin 6000-dən çox investisiya layihəsinin maliyyələşdirilməsinə 221,6 milyon manat güzəştli kredit verilib.

İşgüzar forum çərçivəsində Ağstafa və ətraf rayonlardan olan 48 sahibkara 610 min manat güzəştli kredit verilib. Bu kreditlər, əsasən, heyvandarlıq, quşçuluq, tərəvəzçilik, bağçılıq, un məmulatları istehsalı sahələrinin inkişafına yönəldiləcək. Kreditlərin reallaşdırılması hesabına 50-dən çox yeni iş yerinin açılması nəzərdə tutulur. Forum çərçivəsində Ağstafa rayonunda güzəştli kredit ayrılmış heyvandarlıq təsərrüfatlarına baxış keçirilib.

**FƏXRİYYƏ**

## vergi təqvimi

| OKTYABR | | | | | | |
|---|---|---|---|---|---|---|
| I | II | III | IV | V | VI | VII |
| | | | | | 1 | 2 |
| 3 | 4 | 5 | 6 | 7 | 8 | 9 |
| 10 | 11 | 12 | 13 | 14 | 15 | 16 |
| 17 | 18 | 19 | 20 | 21 | 22 | 23 |
| 24/31 | 25 | 26 | 27 | 28 | 29 | 30 |

*Qeyd: Verginin ödənilmə və bəyannamənin (o cümlədən arayışın) verilmə müddətinin sonuncu günü təqvimdə yaşıl rənglə qeyd edilmişdir. Həmin gün istirahət və ya bayram gününə düşdüyü halda, növbəti iş gününə keçirilir.*

**Ödənilən vergi:**
17 oktyabr - «(1)» və «(2)».
20 oktyabr - «(1-1)», «(1-2)», «3», «4», «7», «8», «9», «(9-1)», «10.1», «10.2», «10.3» və «11».

**«(1) və (2)» - Gəlir və Mənfəət vergisi:** Gəlir və mənfəət vergisi üzrə hesabat dövrü təqvim ilidir. Hüquqi şəxslər və fərdi sahibkarlar rüb qurtardıqdan sonra 15 gündən gec olmayaraq cari ödəmələri dövlət büdcəsinə ödəməlidirlər. Bələdiyyə mülkiyyətində olan müəssisə və təşkilatlar mənfəət vergisini yerli büdcəyə (bələdiyyə büdcəsinə) ödəyirlər. Cari vergi ödəmələri vergi ili üçün vergi ödəyicisindən tutulan verginin məbləğinə aid edilir.

Vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini öz seçiminə əsasən aşağıda göstərilən iki mümkün metoddan birinə uyğun müəyyənləşdirə bilər.

Birinci metod: Hər rüb üçün cari ödəmələrin məbləği əvvəlki vergi ilində hesablanmış verginin 1/4 hissəsi məbləğində müəyyən edilir.

İkinci metod: Cari rübdəki gəlirin məbləğini keçən ilin ümumi gəlirində (gəlirdən çıxılan məbləğlər nəzərə alınmadan) verginin xüsusi çəkisini göstərən əmsala vurmaqla müəyyən edilir.

Bu zaman vergi ödəyicisi il ərzində cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirməyin yuxarıdakı iki mümkün metodundan birini seçir və hər il aprel ayının 15-dən gec olmayaraq bu barədə vergi orqanına məlumat verir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün tətbiq etdiyi metod barədə məlumat vermədiyi halda vergi orqanı birinci metodu tətbiq edir. Vergi ödəyicisi cari vergi ödəmələrinin məbləğini müəyyənləşdirmək üçün ikinci metodu seçdiyi halda, hər rüb başa çatdıqdan sonra 15 gün ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir, əks halda, vergi orqanı birinci metodu tətbiq edir.

Əvvəlki vergi ilində fəaliyyəti olmayan və növbəti vergi ilində fəaliyyət göstərən, habelə yeni yaradılmış və fəaliyyət göstərən vergi ödəyiciləri mənfəət və ya gəlir vergisi üzrə cari vergi ödəmələrini təqvim ili ərzində rüblər üzrə artan yekunla hesablamalı, cari vergi ödəmələrinin məbləği mənfəətdən və ya gəlirdən verginin məbləğinin 75 faizindən az olmamalı, rüb başa çatdıqdan sonra 15 gün ərzində cari vergi ödəmələrini aparmalı və rüb ərzində mənfəətdən və ya gəlirdən hesablanmış cari vergi məbləği barədə vergi orqanına arayış təqdim etməlidir.

**«(1-1)» - Gəlir vergisi (xüsusi notariuslar üzrə):** Xüsusi notariusların gəlir vergisi üzrə hesabat dövrü rübdür. Xüsusi notariuslar tərəfindən hər bir ay ərzində aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) 10 faiz dərəcə ilə gəlir vergisi hesablanmalı, hesablanmış vergi məbləği isə növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməlidir.

Xüsusi notariuslar tərəfindən aparılan notariat hərəkətlərinə, habelə notariat hərəkətləri ilə əlaqədar göstərilən xidmətlərə görə alınan haqlardan (xərclər nəzərə alınmadan) hesablanan gəlir vergisi barədə «Xüsusi notariusun gəlir vergisi bəyannaməsi» hər rüb başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim edilməlidir.

**(«1-2») - Gəlir vergisi (İdman-mərc oyunları üzrə)** İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisi üzrə hesabat dövrü aydır. İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsə ödəmələr verən şəxslər ödəmə mənbəyində vergini tutmağa, hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq hesablanmış vergini dövlət büdcəsinə köçürməyə və «İdman-mərc oyunlarından uduşlar əldə edən şəxsdən ödəmə mənbəyində tutulan gəlir vergisinin bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«3» - Əlavə dəyər vergisi:** ƏDV üzrə hesabat dövrü təqvim ayı sayılır. ƏDV ödəyən vergi ödəyicisi ƏDV-nin bəyannaməsini hər hesabat dövrü üçün hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq qeydiyyatda olduğu vergi orqanına verir və vergini dövlət büdcəsinə ödəyir.

**«4» - Aksizlər:** Aksizlər üzrə hesabat dövrü təqvim ayıdır. Aksizli mallar istehsal edildikdə hər hesabat dövrü üçün vergi tutulan əməliyyatlar üzrə aksizlər hesabat dövründən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödənilməli və vergi orqanına bəyannamə verilməlidir.

**«7» - Yol vergisi** üçün hesabat dövrü təqvim ayı sayılır. Azərbaycan Respublikasının ərazisində avtomobil benzininin, dizel yanacağının və maye qazın istehsalı ilə məşğul olan fiziki və hüquqi şəxslər yol vergisini aylıq olaraq hesablayır və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yol vergisinin bəyannaməsi»ni vergi orqanına təqdim etməklə vergini dövlət büdcəsinə ödəyirlər.

**«8» - Mədən vergisi:** Mədən vergisi üzrə hesabat dövrü təqvim ayı sayılır. Mədən vergisinin ödəyicisi hesabat ayı üçün faydalı qazıntıların çıxarıldığı aydan sonrakı ayın 20-dən gec olmayaraq vergini ödəyir və bəyannamə verirlər. Yerli əhəmiyyətli tikinti materialları üzrə mədən vergisi yerli (bələdiyyə) büdcəyə ödənilir və bələdiyyələrə mədən vergisinin bəyannaməsi verilir. Yerli əhəmiyyətli tikinti materiallarına kərpic-kirəmit gilləri, tikinti qumları, çınqıl xammalı aid edilir.

**«9» - Sadələşdirilmiş vergi:** Sadələşdirilmiş vergi üzrə hesabat dövrü rübdür. Sadələşdirilmiş verginin ödəyicisi olan şəxs hesabat rübündən sonrakı ayın 20-dən gec olmayaraq ödənilməli verginin məbləği haqqında vergi orqanına bəyannamə verir və həmin müddətdə vergini dövlət büdcəsinə ödəyir.

**(«9-1») - Sadələşdirilmiş vergi (Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə)** - Yaşayış və qeyri-yaşayış sahələrinin təqdim edilməsi üzrə müqavilələri təsdiq edən notarius sadələşdirilmiş vergini hesablayaraq 1 (bir) bank günü ərzində dövlət büdcəsinə ödəməyə və hesabat ayından sonrakı ayın 20-dən gec olmayaraq «Yaşayış və qeyri-yaşayış sahələrini təqdim edən şəxslərdən notariuslar tərəfindən ödəmə mənbəyində tutulan sadələşdirilmiş vergi bəyannaməsi»ni vergi orqanına verməyə borcludurlar.

**«10.1» - Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergi:** Muzdlu işlə əlaqədar ödəmə mənbəyində vergi tutan ƏDV və sadələşdirilmiş vergi ödəyicilərinin bu ödəmələr üzrə hesabat dövrü vergi ili, digər vergi ödəyicilərinin hesabat dövrü isə rübdür.

Muzdla işləyən fiziki şəxslərə ödəmələr verən hüquqi şəxslər və fərdi sahibkarlar muzdla işləyən fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisini hesablamalı və hesablanmış məbləği növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməlidirlər.

Muzdlu işlə əlaqədar ödəmə mənbəyində tutulan vergilər barədə bəyannaməni ƏDV və sadələşdirilmiş verginin ödəyiciləri hesabat ilindən sonrakı ilin yanvar ayının 31-dən gec olmayaraq, digərləri isə hesabat rübü başa çatdıqdan sonra növbəti ayın 20-dən gec olmayaraq vergi orqanına təqdim etməlidirlər.

**«10.2» - Ödəmə mənbəyində tutulan digər vergilər:** ƏDV və sadələşdirilmiş verginin ödəyicilərinin muzdlu işlə əlaqədar aparılan ödəmələri istisna olmaqla, ödəmə mənbəyində tutulan digər vergilər üzrə hesabat dövrü rübdür.

Hüquqi şəxslər və fərdi sahibkarlar qeyri-dövlət pensiyaları və ödəmə mənbəyində vergiyə cəlb olunmalı digər ödəmələri verərkən bu gəlirlərdən vergini tutmalı, tutulmuş məbləği gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə köçürməli və həmin müddətdə də bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«10.3» - Sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə ödəmə mənbəyində tutulan vergi**: Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə aparılan ödəmələrdən ödəmə mənbəyində tutulan verginin hesabat dövrü rübdür.

Həyatın yığım sığortası və pensiya sığortası üzrə bağlanılmış sığorta müqaviləsinə vaxtından əvvəl xitam verildikdə, sığorta haqları ödəyən sığortaçılar fiziki şəxslərin hesablanmış aylıq gəlirinə gəlir vergisi hesablamalı və hesablanmış vergini növbəti ayın 20-dən gec olmayaraq dövlət büdcəsinə ödəməli və gəlirin ödənildiyi rübdən sonrakı ayın 20-dən gec olmayaraq bəyannaməni vergi orqanına təqdim etməlidirlər.

**«11» - Dövlət rüsumu:** Dövlər rüsumu üzrə hesabat dövrü rübdür. Notariat hərəkətlərinə görə dövlət rüsumu notarius tərəfindən qəbul ediləndən iki bank günü ərzində, Azərbaycan Respublikasının xarici ölkələrdəki diplomatik nümayəndəliklərində aparılan konsul əməliyyatları üçün alınan dövlət rüsumu bir ay ərzində, digər dövlət rüsumları isə tutulduqdan sonra bir bank günü ərzində dövlət büdcəsinə köçürülür.

«Dövlət rüsumu haqqında» Qanunda nəzərdə tutulmuş dövlət rüsumunu tutan şəxslər hesabat rübündən sonrakı ayın 20-dək dövlət rüsumunun tutulması barədə hesabatları vergi orqanına təqdim etməlidirlər.

## ELAN

**Hörmətli vergi ödəyicisi!**

Fəaliyyətiniz zamanı vergi orqanı əməkdaşları tərəfindən yol verilən korrupsiya və digər hüquqpozma halları ilə rastlaşdıqda, aşağıdakı imkanlardan istifadə etməklə, vergi orqanına müraciət edə bilərsiniz:

* Vergilər Nazirliyinin rəsmi internet səhifəsində (www.taxes.gov.az) «Onlayn müraciətlər» bölməsinin «Vergi orqanı əməkdaşlarının fəaliyyətində korrupsiya və digər hüquqpozma halları barədə məlumat ver» alt bölməsinə;
* Vergilər Nazirliyinin poçt ünvanına və ya Daxili təhlükəsizlik baş idarəsinə üzərində «MƏXFİ - Daxili təhlükəsizlik baş idarəsinə» qeydi olan məktubları göndərməklə.

  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi;
* Daxili təhlükəsizlik baş idarəsinə gəlməklə və məlumatı şəxsən (şəxsiyyətinizi təsdiq edən sənədlə) təqdim etməklə.

  Ünvan: AZ1073, Bakı şəhəri, Landau küçəsi 16, Vergilər Nazirliyi, Daxili təhlükəsizlik baş idarəsi;
* Vergilər Nazirliyinin Çağrı Mərkəzinə (195-1)

Vergilər Nazirliyi

beynəlxalq panoram

## BVF Rumıniyada ƏDV-nin qaytarılması qaydasını tənqid edib

Beynəlxalq Valyuta Fondunun (BFV) mütəxəssisləri Rumıniya ilə bağlı hazırladıqları məruzədə qeyd etmişlər ki, hökumət ƏDV-nin qaytarılması üçün öz qiymətli resurslarını itirsə də, bunun qarşılığında hər hansı bir uğur qazanmamışdır. «Rumıniyada bir vergi ödəyicisi üzrə ƏDV-nin qaytarılması orta hesabla yarım il vaxt apardığı halda, bu prosedur üçün Aİ ölkələrində bir gün, hətta ondan da az vaxt lazım gəlir. Həm də audit aparılması üçün böyük həcmdə resurslar sərf olunur», - BVF-nin yaydığı məlumatda deyilir.

Qeyd edək ki, Rumıniyada keçən il yığılmış ƏDV-nin məbləği ümumi daxili məhsulun 7,9 faizini təşkil edirdi. 2014-cü ildə isə yığılmış ƏDV məbləği ÜDM-in 7,6 faizi qədər olmuşdu. Ümumilikdə yığılan bütün vergilərin ümumi məbləği ÜDM-in 18 faizindən artıq deyil və bu, Aİ üzrə ən aşağı göstəricidir.

## İtaliyalılar vergi fırıldağında öndədirlər

İtaliya bir çox məsələlərə görə dünyaya nümunə olan ölkələrdəndir: incəsənəti, təbiət mənzərələri, dadlı şərabları ilə çox məşhurdur. Lakin bu günlərdə ölkənin parlaq imicinə kölgə salan arzuolunmaz bir statistika ortaya çıxmışdır. Sən demə, italyanlar dünyada vergi fırıldağına görə də öndə imişlər. Avropa Komissiyasının yeni araşdırmasına əsasən, 2014-cü ildə ƏDV ödənişindən yayınmalar İtaliya büdcəsinə 36,9 milyard avro bahasına başa gəlmişdir. Bu isə o deməkdir ki, bütün Avropa İttifaqı üzrə xəzinəyə daxil olmamış ƏDV-nin az qala dörddən biri təkcə bu ölkənin payına düşür.

Avropa Komissiyasının təhqiqatının gedişi zamanı mütəxəssislər ƏDV-dən gözlənilən gəlirləri hər bir ölkə üzrə real əldə olunmuş nəticələrlə müqayisə etmişlər. Məlum olmuşdur ki, ƏDV ödənişindən yayınma İtaliyada 27,55 faiz təşkil edir. Bu göstərici yalnız Yunanıstanda, Litvada, Maltada, Slovakiyada və Rumıniyada yüksək olmuşdur. ƏDV ödənişindən yayınma nəticəsində itirilən məbləğə görə isə İtaliya 36,9 milyard avro göstərici ilə «vahid liderdir».

Bu ilin aprel ayında İtaliyanın milli vergi xidməti 2015-ci il üçün ödənilməmiş əlavə dəyər vergisinin məbləğini açıqlamışdır: 14,9 milyard avro. Lakin «The Local» qəzetinin yazdığına görə, bu, ölkənin hər il vergilərdən itirdiyi 90 milyard avronun yalnız bir hissəsidir.

## Vergidən yayınan tacirlər həbs edildi

İsrail hökuməti vergidən yayınma işi üzrə ilk həbsləri həyata keçirmişdir. Almaz ticarəti edən və HSBC bankının İsveçrə şöbəsində bəyan edilməmiş hesabları olan dörd nəfər artıq həbsxanaya salınmışdır. Bu dörd israilli öz ölkəsinin vergi orqanına məlumat vermədən HSBC bankındakı hesaba 100 milyon şeklə yaxın (16,11 milyon funt sterlinq) pul vəsaiti qoymaqda ittiham olunur. Təl-Əviv məhkəməsi onların zaminə buraxılmasına razılıq vermişdir. Lakin saxlanılan şəxslərin dördü də onlara qarşı irəli sürülmüş ittihamı rədd edir.

Qeyd edək ki, İsrail qanunu İsveçrə bankında hesab açmağa yol versə də, bu zaman müvafiq orqanlara məlumat vermək və vergiləri ödəmək əsas şərtdir. İsrailin vergi orqanları 2015-ci ildən bəri HSBC (İsveçrə) bankında hesabı olan vətəndaşların siyahısını əldə etmək üzərində iş aparırlar. Avqust ayında bildirilmişdi ki, Fransa hökuməti bankın 8 mindən artıq müştərisinin siyahısını təqdim etmişdir.

## Şotlandiyanın Gəlirlər İdarəsi illik hesabatını açıqladı



İdarənin nəşr etdirdiyi illik hesabatda göstərilir ki, bir il ərzində torpaq və əmlak satışından (LBTT), eləcə də «poliqon vergisi» adlandırılan yığımlardan (SLfT) 572 milyon funt sterlinq vəsait əldə edilmişdir. Hesabata görə, 2015-ci ilin 1 aprelindən 2016-cı ilin 1 martınadək idarə 425 milyon funt sterlinq LBTT və 147 milyon funt sterlinq SLfT yığmışdır.

2015-2016-cı illərdə təqdim edilmiş 115.000 vergi bəyannaməsinin 98 faizi Şotlandiyanın yeni elektron vergi sistemi vasitəsilə göndərilmişdir. Ölkənin vergi administrasiyası vaxtında qeydiyyata düşməməyə və ödənişlərin qaytarılmasına görə cərimələr və dəbbələr hesabına xəzinəyə 311 min funt sterlinq vəsait cəlb etmişdir.

Qeyd edək ki, 2014-cü ildə fəaliyyətə başlayan Şotlandiyanın Gəlirlər İdarəsi ölkədə vergilərin yığılmasına və idarə edilməsinə cavabdehlik daşıyır. LBTT və SLfT Böyük Britaniyadakı ekvivalenti (müvafiq olaraq gerb vergisini və poliqon vergisini) əvəzləyərək 2015-ci il aprelin 1-dən qüvvəyə minmişdir.

Gəlirlər İdarəsinin rəhbəri Kit Nikolson demişdir: «Şotlandiyanın Gəlirlər İdarəsinin ilk ili çox uğurlu olmuşdur, bu, gərgin əməyin və əməkdaşların fədakarlığının həqiqi göstəricisidir. Mən xüsusi olaraq məmnunam ki, təşkilatımız özünün mövcudluğunun birinci ilində vergilərin həvalə edilməsi ilə 572 milyon funt sterlinq vəsait yığmış və etibarlı onlayn vergi sistemi yaratmağa nail olmuşdur. Bu sistem bütün gözləntiləri artıqlamasilə doğrultmuş və geniş rəğbət qazanmışdır. Bu uğurlar Şotlandiyanın vergi idarəsinin mərkəzdən ayrılmasının çox səmərəli addım olduğunu dəqiq ifadə edir».

## Xəbər lenti

**Cənubi Koreya**da kölgə iqtisadiyyatının illik orta artımı 1995-2014-cü illər arasında ölkənin ümumi daxili məhsulunun 10,89%-ni təşkil etmişdir ki, bu da təxminən143,7 milyard dollar deməkdir. Müstəqil araşdırmaya görə, həmin müddətdə vergidən yayınma orta hesabla illik 3,72% olmuşdur. Bu göstərici də G7 (2,21%) və OECD (3,6%) ölkələri ilə müqayisədə yüksəkdir.

**İsveç**in 2016-cı il üzrə payız büdcəsi sentyabrın 20-də təqdim olunmuşdur. Buraya velosiped, paltar və ayaqqabı kimi əşyaların xırda təmirindən tutulan əlavə dəyər vergisinin 25%-dən 12%-ə endirilməsi barədə təklif də daxildir. Bundan başqa, bəyaz əşyaların təmiri üçün vergi kreditinin tətbiq olunması da təklif edilmişdir.

**ABŞ** parlamentinin Nümayəndələr Palatası «Səyyar işçilərin ştat gəlir vergisinin sadələşdirilməsi aktı»nı qəbul etmişdir. Bu sənəd işləmək üçün vergi ödənilən ştata gələn qeyri-rezident muzdlu işçilərin vergiləri bəyan etməsi üçün vahid çərçivə təmin edir.

**Böyük Britaniya**nın vergi administrasiyası rezident torpaq sahibləri üçün qaydaları təkmilləşdirmişdir. Yenilənmiş qaydalarda 2016-cı ilin aprelindən mənzil kirayəsinə tətbiq olunan güzəştlər nəzərə alınmış, eləcə də icarəyə verilmiş əmlakdan gəlir əldə edənlərin vergi öhdəlikləri dəqiqləşdirilmişdir.

**«Apple Inc»** korporasiyasının bölməsi olan «iTunes» gəlirlərini süni şəkildə az göstərdiyinə görə, Yaponiyada yerli hökumətlərə 118 milyon dollar vergi ödəməlidir.

**«McDonalds»** əlüstü yemək restoranları şəbəkəsi Lüksemburqda 500 milyon dollar məbləğində əlavə vergi ödəyə bilər.

## Portuqaliyada imkanlı insanlar üçün əmlak vergisi artırıldı

Hökumətin vergi qanunvericiliyində apardığı son dəyişikliyə əsasən, ölkənin mənzərəli və əlverişli ərazilərində evi olan şəxslər artırılmış əmlak vergisi ödəmək öhədəliyi daşıyırlar. «Dəbdəbə» hesab edilən əmlak üçün verginin dərəcəsi 20% artırılmışdır.

Portuqaliya hökuməti bunu belə əsaslandırır ki, pəncərəsindən gözəl mənzərə görünən evlərin bazar dəyəri yüksək olduğuna görə, bu cür evlərin sahibləri də dəbdəbəli həyat sürən imkanlı adamlar hesab edilməlidir. Beləliklə, Portuqaliyada daşınmaz əmlak verginin artırılması «dəbdəbə üçün verginin» tətbiqinin müəyyən bir forması kimi təqdim edilir.

Ölkənin vergi qanunvericiliyində edilmiş dəyişikliklər müəyyən məntiqə əsaslansa da kəskin tənqidlə qarşılanmışdır. Bu vergi islahatının əleyhdarları belə bir mülahizə irəli sürürlər ki, daşınmaz əmlakın bu və ya digər kateqoriyaya aid edilməsi üçün müəyyənləşdirilmiş meyarın heç bir konkret əsaslandırılması yoxdur. Bu isə ona gətirib çıxaracaq ki, vergi orqanları ev sahiblərindən artırılmış vergi tutmaq məsələsində subyektiv qərar verəcəklər.

## Avstraliya vergi ödəyicilərinə güzəştə gedir

Ölkədə vergi qanunvericiliyinə dəyişiklik qüvvəyə minmişdir. İndiyədək illik qazancı 80 min Avstraliya dollarından (49 min ABŞ dolları) artıq olanlar qazanclarının 37%-i qədər vergi ödəyirdilər, yeni qanunvericilikdə isə həmin hədd 87 min dollar (53 min ABŞ dolları) müəyyənləşdirilmişdir. İllik gəlirləri bu həddən aşağı olanlar isə 32,5% dərəcə ilə vergi ödəyirlər.

O da maraqlıdır ki, bu qanun keçmiş tarixlə - 2016-cı il iyulun 1-dən qüvvəyə minmiş sayılır. Bu isə o deməkdir ki, yeni müəyyənləşdirilmiş limitdən artıq vergi ödəmiş ölkə vətəndaşları pullarını geri alacaqlar. Ekspertlər bu dəyişikliyin ölkə büdcəsinə daxilolmalarda özünü göstərəcəyini proqnozlaşdırırlar.

## krossvord



**Yuxarıdan aşağı:** 1.XIX əsrin məşhur fransız yazıçısı, novella janrının ustadı. Bir çox roman və povestlərin müəllifi («Matteo Falkone»); 2.Söykənəcəyi olmayan sadə stul; 3.Dağıstanın Dərbənd rayonunda monoetnik kənd, sakinləri etnik azərbaycanlılardan ibarətdir; 4.Şamaxı rayonunda kənd; 5.Şimali Amerikada vulkan, həmçinin göl; 6.İslamda ilahiyyat və din üzrə təhsil almış şəxs; 7.Qonaqlıqlarda, toylarda və s.-də məclisi idarə edən şəxs; 13.Həndəsi fiqur; 15.Triqonometrik funksiya; 16.Bədii incəsənət əsərinin basqı növü. Taxta və ya dəmir lövhə üzərində oyulmuş (cızılmış) bir rəsmin kağızda çap edilməsi; 17.Balıq cinsi; 18.Rusiyada şəhər; 20.V.Şekspirin «Hamlet» əsərində personaj; 21.İntibah dövrünün ən tanınmış fransız yazıçısı. Məşhur «Qarqantüa və Pantaqrüel» romanının müəllifi.

**Soldan sağa:** 1.İdealizmin əksinə olaraq, dünyanın obyektiv varlığını və onun qanuna uyğunluqlarının dərk olunmasının mümkünlüyünü qəbul edən elmi-fəlsəfi cərəyan; 8.Uzaq Şərqdə çay; 9.Azərbaycan şairi, dramaturq, tərcüməçi. «Bakı, sabahın xeyir» məşhur mahnısının sözlərinin müəllifi; 10.Cütdırnaqlılar dəstəsinə aid heyvan; 11.Daşınar əmlakı və ya başqa bir şeyi girov kimi qəbul edib, borc pul verən kredit müəssisəsi; 12.Yaponiyanın Hokkaydo adasında şəhər; 14.Sovet dövründə QAZ-13 reprezentativ avtomobilin adı; 19.E.ə 480-ci ildə Egey dənizindəki eyniadlı ada yaxınlığında yunan və fars donanmaları arasında baş vermiş döyüş; 21.Polşada şəhər; 22.Qazax rayonu ərazisində yerləşən Kiçik Qafqaz dağlarındakı zirvələrdən biri, ağ bozumtul dağ silsiləsi; 23.Texnoloji proses cəhətdən bir-birilə bağlı olan bir neçə müəssisəni birləşdirən iri sənaye müəssisəsi; 24.Şahmatda vəziyyət; 25.Mifoloji və tarixi mövzularda peşəkarlaşmış rus rəssamı. Rusiya rəssamlığında folklora üstünlük verən, romantik modernizm cərəyanının qurucularından biri.



*«Bahadırlar». 1898-ci il. Mifoloji və tarixi mövzularda peşəkarlaşmış məşhur rus rəssamının ən məşhur əsərlərindən biri*

**Tərtib etdi: Rafael**

*Qəzetimizin ötən nömrəsində getmiş krossvordun cavabları:*

**Yuxarıdan aşağı:** 1.Kaktus; 2.Nirvana; 3.Tuğra; 4.Urumçi; 5.Toronto; 6.Radar; 7.Qarğış; 13.Qrız; 15.Qolovno; 16.Adaqan; 17.Bılina; 18.Hesiod; 20.Məlik; 21.Müdri. **Soldan sağa:** 1.Konstruktor; 8.Koroğlu; 9.Rudar; 10.Urada; 11.Çinarlı; 12.Vanqa; 14.Volqa; 19.Damcılı; 21.Melle; 22.Qala; 23.Firdovsi; 24.Nik; 25.Klavikord.

Vergilər
SOSİAL-İQTİSADİ HƏFTƏLİK
12 fevral 2000-ci ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Vergilər Nazirliyi

Baş redaktor: Anar Əliyev anar.eliyev@taxes.gov.az

Baş redaktor müavini: Məti Osmanoğlu redaksiya@vergiler.az

Qeydiyyat şəhadətnaməsi № R148
VÖEN: 1300327481
IBAN: AZ46ATAZ01200012258000138090
Atabank ASC. Kod: 507581
VÖEN: 9900006651

M/h: AZ50NABZ01350100000000032944
S.W.I.F.T. BIK ATAZAZ22

Ünvan: AZ 1141, Bakı ş., Əbdürrəhim bəy Haqverdiyev küç., 60

Telefon: 012 403 87 89, 012 403 87 95 (faks / abunə ilə bağlı)

«Vergilər» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və «Azərbaycan» nəşriyyatında çap olunmuşdur.

Tiraj: 11000

## idman

# Azərbaycan əsgəri idmanda da yüksək nailiyyətlər əldə edir



Beynəlxalq Hərbi İdman Şurasının (CISM) himayəsi altında Makedoniyanın paytaxtı Skopyedə keçirilən güləş üzrə hərbçilərin 31-ci dünya çempionatını ikinci yerdə başa vuran Azərbaycan yığma komandası sentyabrın 26-da Vətənə qayıdıb. Heydər Əliyev Beynəlxalq Aeroportunda idmançılarımızı Müdafiə Nazirliyinin əməkdaşları, hərbçilərin yaxınları, idmansevərlər və KİV nümayəndələri gül-çiçəklə qarşılayıblar.

Azərbaycan Respublikası Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubunun (MOİK) komandasının qatıldığı dünya çempionatında 4 qitəni təmsil edən 35 ölkədən 300-dən çox idmançı mübarizə aparıb. Sərbəst və yunan-Roma güləşi yarışlarında iştirak edən idmançılarımız 2-si qızıl, 4-ü gümüş və 3-ü bürünc olmaqla dünya çempionatını ümumilikdə 9 medalla başa vurublar. Azərbaycan yığmasına qızıl medalları Həsən Əliyev və Ağahüseyn Mustafayev qazandırıblar. Millimiz komanda hesabında 53 xal toplayaraq yarışları ikinci yerdə başa vurub.

Azərbaycan nümayəndə heyətinin rəhbəri MOİK-in rəisi polkovnik-leytenant Rəşad Quliyev, sərbəst güləş üzrə komandamızın rəhbəri Nazim Əlicanov, yunan-Roma güləşi üzrə komandamızın rəhbəri isə Taleh İsrafilovdur. Həmçinin dünya çempionatında Azərbaycan nümayəndə heyətinin tərkibinə beynəlxalq dərəcəli hakim Elman İsmayılov da daxil olub.

# Avroliqa həyəcanı davam edir

Sabah Azərbaycanın iki komandasının - «Qarabağ» və «Qəbələ»nin də iştirak etdiyi UEFA Avropa Liqasının qrup mərhələsinin II turuna start verilir.

«J» qrupunda çıxış edən Ağdamın «Qarabağ» komandası İtaliyanın «Fiorentina» klubunun qonağı olacaq. Bakı vaxtı ilə saat 21:00-da başlayacaq matçı avstriyalı hakimlər briqadası idarə edəcək. Oyunun baş hakimi Oliver Draxta, yan xətt hakimləri Roland Bradner və Ştefan Kührdür. Əlavə köməkçi hakimlər Manuel Şüttenqruber və Diter Mukenhammerdir. Roland Ridel isə qarşılaşmada dördüncü hakim funksiyasını yerinə yetirəcək. Hakimlərin işinə kiprli Mixael Arqriu qiymət verəcək, UEFA nümayəndəsi isə ispaniyalı Eduard Dervişay olacaq.

Qeyd edək ki, «Qarabağ» öz meydanında keçirdiyi ilk turda kapitan Rəşad Sadıqovun matçın sonuna yaxın vurduğu qolla Çexiyanın «Slovan» komandası ilə 2:2 hesablı heç-heçəyə nail olmuşdu.

Birinci turda səfərdə Belçikanın «Anderlext» klubuna 1:3 hesabı ilə məğlub olan «Qəbələ» isə doğma divarlar arasında Almaniyanın «Maynts» klubunu qəbul edəcək. «Baksel Arena»da baş tutacaq qarşılaşmanın final fiti yerli vaxtla saat 19:00-da səsləndiriləcək.

UEFA bu qarşılaşmanı litvalı hakimlər briqadasına həvalə edib. Oyunun baş hakimi Gediminas Majeykaya Vyautas Şimkus və Vytenis Kazlauskas kömək edəcəklər. 4-cü hakim funksiyasını Vladimir Gerasimov yerinə yetirəcək. Görüşün əlavə köməkçi hakimləri Sergeyus Sliva və Yuri Paskovski olacaq. Hakim-inspektor kimi Bakıya gürcüstanlı Levan Paniaşvili, UEFA nümayəndəsi kimi isə hollandiyalı Eugene Vesterink gələcək.

# Mötəbər turnirdə möhtəşəm start

Azərbaycan qrossmeysteri Şəhriyar Məmmədyarov Moskvada səkkizinci dünya çempionu Mixail Talın xatirəsinə həsr edilmiş ənənəvi şahmat turnirinin açılışında keçirilən blits- turnirin qalibi olub.

Rusiya KİV-lərinin verdiyi məlumata görə, Azərbaycan nümayəndəsi 9 mümkün xaldan 7,5 xal toplayaraq birinci yeri tutub. İkinci yeri Ermənistan nümayəndəsi Levon Aronyan (5,5 xal), üçüncü yeri rusiyalı Yan Nepomnyaşşiy (5 xal) tutub.

Əsas turnirin start turu üçün püşkatmada Şəhriyar Məmmədyarov beşinci nömrəni seçib. İlk görüşdə ağ fiqurlarla oynayacaq Ş.Məmmədyarovun rəqibi Çin nümayəndəsi Li Çao olacaq.

Birinci turun digər partiyalarında Pyotr Svidler və Vladimir Kramnik, Yan Nepomnyaşşiy və Yevgeni Tomaşevski, erməni Aronyan və israilli Boris Gelfand, hollandiyalı Aniş Giri və hindistanlı Vişvanatan Anand qarşılaşacaq.

Oktyabrın 6-da başa çatacaq turnirin mükafat fondu 200 min dollara bərabərdir.

## Azərbaycanlı FİFA referisinə yüksək etimad



Futbol üzrə UEFA Avropa Liqasının «E» qrupu çərçivəsində «Stadio Olimpico»da keçiriləcək «Roma» (İtaliya) - «Astra» (Rumıniya) oyununu azərbaycanlı FİFA referisi Əliyar Ağayevin başçılıq etdiyi hakimlər briqadası idarə edəcək.

Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının (AFFA) rəsmi saytının yaydığı məlumata görə, sentyabrın 29-da keçiriləcək matçda Ə.Ağayevin köməkçiləri Zeynal Zeynalov və Rza Məmmədov, əlavə köməkçi hakimlər isə Rəhim Həsənov və Orxan Məmmədov olacaq. Dördüncü hakim funksiyasını Mübariz Haşımov yerinə yetirəcək.

## mozaika

fantastika




Kanadanın «Thoth Technologies» şirkəti kosmosa qalxmaq üçün lift quraşdırmaq fikrindədir.

Alimlər bu liftin necə quraşdırılacağı və işləyəcəyi haqda da məlumat veriblər. Layihəyə əsasən bunun nanobloklardan ibarət hündür bir qala olacağı bildirilir. Qalanın ən üst qatında turistlər üçün xüsusi ayrılmış meydança və kosmik gəmilərin uçuş zolağı olacaq.

Kanada mütəxəssisləri uzun zamandır bu plan üzərində çalışırlar. Onlar bu cür liftlərin qısa zamandan sonra hər kəs üçün əlçatan olacağını bildiriblər.

mədəniyyət

# «Əli və Nino» filmi kinoteatrlarda...




Səbrsizliklə gözlənilən «Əli və Nino» filmi oktyabrın 6-dan «CinemaPlus» kinoteatrlarında nümayiş olunacaq. Film Azərbaycan dilində təqdim ediləcək.

Filmin icraçı prodüseri Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva, prodüseri Kris Tikyer, rejissoru «BAFTA» mükafatı sahibi Asif Kapadia, ssenari müəllifi isə «Academy Award» mükafatı laureatı Kristofer Hemptondur.

Yazıçı Qurban Səidin dünya bestselleri olan eyniadlı romanı əsasında ekranlaşdırılan «Əli və Nino» xalqımızın müstəqillik uğrunda mübarizəsi və XX əsrin əvvəlində Azərbaycanın Rusiya tərəfindən işğal edilməsi fonunda müxtəlif dinlərə etiqad edən iki gəncin sevgisindən bəhs edir.

Ekran əsərində baş rollarda Adam Bakri (Əli) və Mariya Valverde (Nino) çəkiliblər. Filmdə, həmçinin, Halit Ergenç, Mendi Petinkin, Konni Nilson, Rikkardo Samariko, Humayon Erşardi, Fəxrəddin Manafov, Əsad Bub, Numan Akar və digər 3 məşhur aktyorlar iştirak ediblər.

cəmiyyət

# 500 avroluq «mədəniyyət bonusu»

İtaliya hökuməti gənclərin mədəni fəaliyyətlərini təşviq etmək üçün 18 yaşı tamam olan hər bir vətəndaşa 500 avro verməklə bağlı qərar qəbul edib. Sentyabrın 15-dən tətbiq olunacaq bu yenilik gəncləri daha çox kitab oxumağa, muzeylərə, teatrlara baş çəkməyə həvəsləndirmək məqsədi daşıyır.

İtaliyanın Baş naziri Matteo Renzinin elan etdiyi bu təşəbbüsün 575 min yeniyetməni əhatə edəcəyi gözlənilir. Bu il 18 yaşı tamam olan gənclər bu mükafatdan istifadə etmək üçün onlayn qeydiyyatdan keçməlidirlər. Onlar «18app.it» adlı xüsusi aplikasiyanı yükləməklə pulu gələn ilin sonunadək xərcləyə bilərlər.

şəbəkə

# Yeni sistem hakerləri aldadır

Kiber dünyanın piratları olan hakerlərə qarşı tamamilə təhlükəsiz sistem hələlik istehsal edilməyib. Lakin texnologiyanın inkişafı sayəsində artıq təhlükəsizlik tədbirləri də ağıllı hala gətirilib. Hakerləri aldatmaq məqsədilə onlara qarşı yeni nəsil təhlükəsizlik sistemi hazırlanıb.

Pensilvaniya Universiteti tərəfindən hazırlanan bu ağıllı sistem ona daxil olan hər hansı bir hücumu anladığı zaman hakeri yaradılmış saxta bir şəbəkəyə yönləndirir. Hakerin saxta bölgədə olduğunu anlamaması üçün sistem ona şəbəkə haqqında lazımsız məlumatları bilməsinə icazə verir. Sistem tədqiqat mərhələsindəki hakerin bir neçə dəfə bu şəbəkəyə daxil olacağını təxmin etdiyi üçün onu qara siyahıya əlavə edir və sonrakı hücumunda da eyni saxta şəbəkəyə yönləndirərək fərqli məlumatlar verir. Ağlı qarışan haker dəyişikliyin səbəbini başa düşmədiyi, sistem administratorunun bu vəziyyətdən xəbərdar olduğunu bilmədiyi üçün zaman üstünlüyünü itirir. Belə ki, bu ağıllı sistem hakerin bütün fəaliyyətlərini qeydə alır və istəmədən də olsa, sistem administratoruna bildirir.

Hazırda sistem sınaqdan keçirilir.

maraqlı

# İnsanın baxış istiqamətini dəyişdirmək mümkün olub



Rusiyanın Skolkovo Elm və Texnologiya İnstitutunun (Skoltex) alimləri tərəfindən hazırlanmış alqoritm real vaxt rejimində videotəsvirdə insan baxışının istiqamətini dəyişdirir.

Videorabitə (məsələn, «Skype») ilə danışıq zamanı həmsöhbətlər, adətən, kameraya deyil, ekrana baxır və bunun nəticəsində onun baxışı ya aşağı, ya da kənara zillənmiş olur. Eyni anda mətn oxumalı və tamaşaçılara baxmalı olan televiziya diktorları da oxşar problemlə üzləşir.

«Skoltex»in alimləri kompüterin neyron şəbəkəsinə əsaslanan sistem yaradıblar. İlk öncə xüsusi alqoritmin köməyi ilə kadrda gözün sahəsi məhdudlaşdırılır və xarakterik nöqtələr toplusu hesablanır. Bu məlumatlar neyroşəbəkəyə daxil olur və insanın baxış istiqamətini dəyişir.

İstehsalçılar hesab edirlər ki, onların layihəsi yalnız videorabitə üçün deyil, həm də foto və kino sənayesi üçün zəruridir.

araşdırma

# Rütubətli hava və gün işığının azlığı...

Mançester Universitetinin alimləri hava və xroniki ağrılar arasında həqiqətən də əlaqənin olub-olmadığını müəyyənləşdirmək qərarına gəliblər. Tədqiqatda xroniki ağrılardan əziyyət çəkən 9 mindən çox insan iştirak edib. Həkimlərin xahişi ilə iştirakçılar məlumatları mobil telefonla çatdırıblar. Əldə olunan nəticələr günəşli günlərin sayı, yağıntıların səviyyəsi və ağrıların şiddətində dəyişikliklər arasında əlaqəni üzə çıxarıb.

Ekspertlər deyirlər ki, pis hava - yağış, xüsusilə günəş işığının azlığı xroniki ağrıları kəskinləşdirə bilər. Günəşli günlərin sayı fevral ayından aprelə doğru artdığı üçün insanların ağrılardan əziyyət çəkdiyi müddət xeyli azalır. Amma havanın rütubətli və daha az günəşli olduğu iyun ayında ağrılar yenidən artır.

Mütəxəssislər ümid edirlər ki, yaxın gələcəkdə bu informasiyadan gündəlik «ağrı proqnozları»nın hazırlanması üçün istifadə edilə bilər. Bunun sayəsində insanlar öz fəaliyyətlərini havaya əsasən planlaşdıra biləcəklər. Bundan əlavə, müvafiq biliklər tədqiqatçılara ağrıların müalicəsi üçün yeni metodlar yaratmağa imkan verəcək.

## Müdriklər deyib ki...



*«Mürəkkəb bir problem üzərində çalışan və işini lazımi səviyyədə yerinə yetirən şəxs heç vaxt özünə hörmət hissini itirməz».*

*Bernard Şou (1856 – 1950)*